# QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 139 (6339) 7 avqust 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


Bax 2



## Azərbaycan hər zaman Türkiyənin yanındadır!

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib*

## Ermənistana təzyiq artır: Paşinyan sülh sazişinə hazırlanır

Ermənistana təzyiq artır
Paşinyan sülh sazişinə hazırlanır




## Ukraynada qadınları Yunanıstana satmağa hazırlaşan erməni saxlanıldı!

Bax 14



## MN: "Ermənistanın müdafiə nazirliyi dezinformasiya mənbəyidir"

Bax 9



Etimadını itirmiş Ermənistan müdafiə nazirliyi öz çirkin əməllərindən əl çəkmir və yalan məlumatlar yaymaq məqsədilə müxtəlif üsullara əl atır.

## Meşələrin məhvi təbiətə qarşı terrordur

Bax 12



## Vətəndaş soruşur: Həftəsonu ictimai nəqliyyat niyə işləmir?



## Srečko Cukić: "Serbiyadan Ermənistana silah satılmasına görə üzr istəyirik"



Müharibədən sonra bəzi xarici dövlətlərin - qeyri-regional oyunçuların -xarici işlər nazirlərinin Azərbaycan, Qırğızıstan və Qazaxıstana səfərləri tez-tez baş verdi...

Bax 15

## Erməni quldur dəstələri Qarabağda xaos yaşadırlar

Bax 12



### Messi "Barselona"dan niyə getdi?- əsl səbəb açıqlandı!



Bax 16

### Karapetyanın "xox" gəlməsi yalanmış...



Bax 14

### Rafael Olimpiya ikincisi oldu



Bax 16



# Azərbaycan hər zaman Türkiyənin yanındadır!

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib*

***Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.***

Dövlətimizin başçısı qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları nəticəsində insanların həlak olması ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana bir daha başsağlığı verdi. Prezident İlham Əliyev yanğınların söndürülməsi və onların törətdiyi fəsadların qarşısının alınmasında Azərbaycanın Türkiyənin yanında olduğunu bildirdi və həmrəyliyini ifadə etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan başsağlığına və meşə yanğınlarının ilk günlərindən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın yanğınların söndürülməsində Türkiyəyə göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirdi. O, Azərbaycandan olan yanğınsöndürənlərin yanğınsöndürmə əməliyyatlarında yüksək peşəkarlıq və sevgi ilə iştirak etdiyini vurğuladı.

Prezident İlham Əliyev əlavə 40 ədəd yanğınsöndürən maşının artıq yola çıxdığını və sabah yanğın zonasına yetişəcəyini qeyd edərək, ərazidə xidmət göstərən yanğınsöndürən maşın və texnikanın sayının 93-ə çatacağını bildirdi. Dövlətimizin başçısı yanğın zonasında 1 helikopter, 1amfibiya tipli yanğınsöndürən təyyarənin və 150 nəfər əlavə heyət göndərilməklə 510 nəfər yanğınsöndürənin fəaliyyət göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti əlavə 200 nəfər xüsusi təlim keçmiş yanğınsöndürən heyətin də göndərilməsini təklif etdi və beləliklə, Azərbaycandan olan yanğınsöndürən heyətin sayının 710 nəfərə çatdırılacağını dedi.

Prezident Rəcəb Tayyib Ərdoğan bu əlavə dəstəyə görə təşəkkürünü bildirdi və bu dəstəyin Azərbaycan ilə Türkiyənin qardaşlığının və dostluğunun bariz təcəssümü olduğunu diqqətdə çatdırdı.

Söhbət zamanı Prezident İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində Ermənistan tərəfindən törədilən təxribatlar barədə Prezident Rəcəb Tayyib Ərdoğana məlumat verdi və Azərbaycan Ordusunun Ermənistanın bu kimi təxribatlarına layiqli cavab verdiyini vurğuladı.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin hər zaman qardaş Azərbaycanın yanında olduğunu bildirdi. Dövlət başçıları söhbət əsnasında postmünaqişə dövründə gedən regional proseslər barədə geniş fikir mübadiləsi apardılar.

# Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq ”Suraxanı” yarımstansiyasının açılışında iştirak edib












Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq ”Suraxanı” yarımstansiyasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, 1932-ci ildə tikilən "Suraxanı" yarımstansiyası istismar müddətini dəfələrlə keçmişdi və təbii ki, artan tələbatı qarşılaya bilmirdi. Məhz buna görə, yarımstansiyada əsaslı şəkildə yenidənqurma işləri aparıldı.

”Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına məlumat verdi ki, yarımstansiya sökülərək açıq tiplidən qapalı tipli variantda tam yenidən qurulub. Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Hazırda dünyada pandemiyanın davam etməsinə və iqtisadimaliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial infrastrukturun daha da müasirləşdirilməsi, əhalinin sosial məsələlərinin həlli istiqamətində icra olunan layihələr uğurla və ardıcıl şəkildə davam edir. Bu layihələr arasında əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində həyata keçirilən işlər xüsusi yer tutur. Son illərdə yeni müasir elektrik yarımstansiyalarının yaradılması, mövcudlarının əsaslı yenidən qurulması bu sahənin maddi-texniki bazasının daha da möhkəmləndirilməsində mühüm rol oynayır və nəticədə istehlakçıların etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunmasını təmin edir.

”Suraxanı” yarımstansiyasında digərlərində olduğu kimi müasir avadanlıq quraşdırılıb. Yarımstansiya Suraxanı rayonunu, Sabunçu və Xəzər rayonlarının bir hissəsini, o cümlədən bir neçə digər sosial strateji və sosial infrastruktur obyektini elektrik enerjisi ilə təchiz edəcək.

Xüsusi layihə əsasında ”Suraxanı” yarımstansiyasının gərginliyi dəyişdirilərək 110/20/6 kilovoltluqdan 110/35/6 kilovoltluğa keçirilib, itkilərin azaldılmasına nail olunub. Eyni zamanda, yarımstansiyanın transformatorlarının ümumi gücü də 126 meqavolt amperədək artırılıb. Müasir avadanlığın quraşdırılması nəticəsində yarımstansiyanın istismar xərclərinin azaldılmasına, işçi heyətin təhlükəsiz əmək fəaliyyətinə, avadanlıqların ətraf mühitin zərərli təsirindən qorunmasına və yarımstansiyanın daha səmərəli fəaliyyət göstərməsinə nail olunub.

# Azərbaycan-Fransa ikitərəfli əlaqələri yeni müstəvidə



Dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi məqsədi ilə həyata keçirilən tədbirlər, görüşlər dostluq və qarşılıqlı əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Fransa arasında əlaqələr də müstəsnadır. Avqustun 5-də Fransa Respublikasının Prezidenti Emmanuel Makronun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etməsi dövlətlərarası münasibətlərin davamlı olmasını göstərir. Söhbət zamanı dövlət başçıları 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə regional məsələlər və Bəyanatın müddəalarının həyata keçirilməsi, Ermənistan-Azərbaycan dövlət sərhədindəki vəziyyət və postmünaqişə dövründə regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıblar. Söhbət əsnasında Azərbaycan-Fransa ikitərəfli əlaqələrinin müxtəlif sahələrinə aid məsələləri də müzakirə edilib. Dünyada etibarlı tərəfdaş imici qazanan, beynəlxalq tədbirlərin, yarışların iştirakçısı və təşkilatçısı olan, regional layihələrdə əsas iştirakçı qismində çıxış edən Azərbaycan beynəlxalq əməkdaşlığa xüsusi önəm verir. Beynəlxalq aləmdə olan böyük siyasi güclərin ölkəmizə münasibəti, Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm vermələri ölkəmizlə münasibətlərin qurulmasına maraqlı olduqlarından təsdiqləyir. Azərbaycan-Fransa əlaqələri və bu münasibətlərin inkişafı xüsusi qeyd olunmalıdır. Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verən Fransa ikitərəfli əlaqələrin yüksək səviyyədə saxlanılmasında hər zaman maraqlı olmuşdur. Azərbaycan və Fransa arasında mülki müdafiə, aeronavtika, elmi əməkdaşlıq, turizm, qadın və uşaqların cəmiyyətdə yeri məsələləri haqqında sazişlər imzalanıb. Cari ilin 2 iyun tarixində Fransa Respublikasının Prezidenti Emmanuel Makronun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə milli bayramımız münasibəti ilə ünvanladığı təbrik məktubu da dövlətlərarası münasibətin daha bir göstəricisidir. Fransa Prezidenti Azərbaycanın milli bayramı münasibətilə Cənab Prezidentə və eləcə də bütün Azərbaycan xalqına ən səmimi təbriklərinin ünvanlayaraq sülh, firavanlıq və tərəqqi arzularımı bildirmişdir. Məktubda qeyd olunurdu ki, ölkələr arasında diplomatik münasibətlərin qurulmasının otuzuncu ildönümü yaxınlaşdıqca möhkəm və uzun müddət davam edən ikitərəfli münasibətlər xeyli gücləndi. "Dağlıq Qarabağda ölümcül döyüşlərə son qoyan 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatdan altı ay sonra yerlərdə davamlı sülhə şərait yaratmaq üçün dərin işləri davam etdirmək lazımdır. Bu, xüsusilə Ermənistan və Azərbaycan arasındakı sərhədin sülh yolu ilə delimitasiyasını və hərbi əsirlərin öz yaxınlarına qovuşa bilmələrini nəzərdə tutur. Bölgənin bütün irsinin müxtəlifliyi ilə qorunması da vacibdir", fikirləri məktubda qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuanı qəbul etməsi də dövlətlərarası münasibətlərin inkişafında önəmlidir. Vurğulamaq yerinə düşər ki, dörd il əvvəl dövlət katibi Jan Batist Lömuan Azərbaycana səfər etmiş və Bakıda Fransız-Azərbaycan Universiteti - UFAZ-ın yeni tədris binasının açılışında iştirakı etmişdir. Azərbaycan-Fransız Universitetinin timsalında və ya son dövrlərdə müsbət inkişaf əldə edən Fransa İnkişaf Agentliyi ilə ikitərəfli layihələr dostluğu və əməkdaşlığı möhkəmləndirməyə və gələcəyə inamla baxmağa imkan verən uğurlardır. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin iyulunda bu ölkəyə səfəri və səfər çərçivəsində Fransa prezidenti Emanuel Makronla görüşü ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynamış oldu. Səfər çərçivəsində geniş müzakirələr aparıldı və Azərbaycanla Fransanın 11 şirkəti arasında 2 milyard ABŞ dolları həcmindəəməkdaşlıq müqavilələri imzalandı. Həmin şirkətlər kosmik fəzanın tədqiqi, müasir təyyarələr, təhsil, elm, mədəniyyət, ekoloji sfera, texnologiyalar, nəqliyyat, enerji və s. bu kimi sahələrdə çalışırlar. Bunlar onu təsdiq edir ki, Fransa Paris Azərbaycanla bütün sahələrdə əlaqələrini daha da genişləndirməkdə və intensivləşdirməkdə maraq göstərir.

Əlbəttə ki, iqtisadi əlaqələr dövlətlərarası münasibətlərin inkişafında xüsusi yer tutur. Bu sahədə müşahidə edilən müsbət dinamika Azərbaycan Fransa arasındakı əlaqələrinin daha da genişlənməsinə töhfələr verir. Ölkələr arasında qeyri-neft sektorunda həyata keçirilən layihələr, Fransa şirkətlərinin Azərbaycanın özəl qurumları ilə işgüzar əlaqələri və digər amillər əməkdaşlıq sahəsində əhəmiyyət kəsb edir. İqtisadi sahədə əməkdaşlıq üçün böyük potensial mövcuddur və Azərbaycanda 50-dən artıq fransız şirkəti fəaliyyət göstərir. Qeyd edək ki, Fransa şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyət göstərməsi və onların həm investor kimi, həm də podradçı qismində bu gün bir çox layihələrdə iştirakı önəmlidir. Fransanın "Elf - Aquitaine" şirkəti "Şahdəniz" neft yatağının istismarına dair müqaviləyə qoşulub. Azərbaycan Dövlət Neft Şirkəti və Fransanın "Total" və "Elf - Aquitaine" şirkətləri arasında Azərbaycanın "Lənkəran - dəniz" və "Talış - dəniz" yataqlarının birgə işlənməsi barədə müqavilə imzalanıb.

Ölkəmizlə Fransa arasında əlaqələrinin inkişafından danışarkən humanitar sahədə olan əməkdaşlığı da vurğulamalıyıq. Bu əlaqələrin tarixi kökü olsa da, bu gün yeni müstəvidə inkişafdadır. Heydər Əliyev Fondu Fransada bir çox əhəmiyyətli layihələr həyata keçirir. Bərpa işləri aparır, sərgilər təşkil edir, müxtəlif tədbirlər həyata keçirir. Artıq Fransanın mədəni həyatında Heydər Əliyev Fondunun özünəməxsus yeri və rolu vardır. Azərbaycan dövləti Luvr muzeyinin İslam İncəsənəti Departamentinin bərpasında iştirak edib, Heydər Əliyev Fondunun səyləri ilə Strasburqun Kafedral kilsəsi, Fransanın digər rayonlarında tarixi və memarlıq abidələri bərpa olunub. Fransa incəsənəti ölkəmizdə hər zaman yüksək dəyərləndirilib və fransız dilinə, ədəbiyyatına, musiqisinə olan rəğbət bütün dövrlərdə hiss olunubdur. Keçmişə nəzər salsaq, Fransa-Azərbaycan mədəni tellərini sadalamaq da mümkündür. Bu sırada hələ XIX əsrdə məşhur yazıçı Aleksandr Dümanın ölkəmizə səfəri və səfər zamanı xan qızı Xurşidbanu Natəvan ilə görüşü, dahi Üzeyir bəyin 1995-ci ildə Parisin "Femina" teatrında fransız dilində tamaşaya qoyulmuş "Arşın mal alan" operettası, Fransada vaxtilə nəşr olunan "Qafqaz" jurnalının redaktoru Ceyhun Hacıbəylini və Fransa ədəbiyyatına "Banin" imzası ilə daxil olan və ilk fransızdilli yazıçımız Ümbülbanu Əsədullayevanı xatırlamaq olar. Bütün bu şəxsiyyətlər Azərbaycan-Fransa mədəni əlaqələrinə silinməz töhfələr veriblər.

Müasir dövrdə müstəqil Azərbaycan digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də Fransa dövləti ilə əlaqələrini möhkəmləndirir və çox yüksək dəyərləndirir. Fransanın paytaxtında və regionlarında Azərbaycanın mədəniyyət günləri təşkil olunur, müxtəlif sərgilər, festivallar, konsertlər keçirilir. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir. Bu gün Fransanın ali məktəblərində yüzlərlə azərbaycanlı tələbə təhsil alır, bir çox Fransa universitetlərində Azərbaycan dili və tarixi tədris olunur. Azərbaycanın paytaxtı Bakıda fransız liseyi fəaliyyət göstərir. Bakıda Fransız-Azərbaycan Universitetinin yeni tədris binasının açılışı bu əlaqələrin daha da inkişafına töhfələr verir. Azərbaycan Prezident İlham Əliyevin vurğuladığı kimi, əgər ilkin olaraq Azərbaycanda fransız liseyi açılmışdırsa, indi isə artıq universitet də fəaliyyət göstərir. Bu, ölkələr arasında əlaqələrin möhkəmlənməsi və genişləndirilməsində daha bir addım oldu.

Görülən işlər xalqlar və ölkələr arasında dostluq əlaqələrini genişləndirib. Bu münasibətlər qarşılıqlı hörmət və marağa əsaslanır. Fransa Respublikasının Prezidenti Emmanuel Makronun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etməsi bir daha göstərir ki, Azərbaycanın Cənubi Qafqazda lider dövlət olması dünya tərəfindən nəinki qəbul edilir, hətta böyük dövlətlər onunla əməkdaşlıq üçün böyük maraq göstərirlər.

***Zümrüd BAYRAMOVA***

## İran parlamentinin sədri: İranla Azərbaycan mühüm coğrafi, tarixi, mədəni və dini ortaq dəyərlərlə bir-birinə bağlı ölkələrdir



İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Seyid İbrahim Rəisinin andiçmə mərasimində iştirak etmək üçün bu ölkədə rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova avqustun 6-da İran İslam Şurası Məclisinin sədri Məhəmmədbaqer Qalibaf ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, Milli Məclisin sədrini və Azərbaycan nümayəndə heyətini salamlayan İran parlamentinin sədri dost və qonşu ölkənin nümayəndə heyətini Tehranda görməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, İranla Azərbaycan mühüm coğrafi, tarixi, mədəni və dini ortaq dəyərlərlə bir-birinə bağlı ölkələrdir. İranda Azərbaycanı çox sevirlər və orada gedən prosesləri yaxından izləyirlər.

Səmimi görüş üçün təşəkkürünü bildirən Milli Məclisin sədri Sahibə Qafarova İranla dost və mehriban qonşuluq münasibətlərimizdən məmnunluğunu ifadə edib. Vurğulayıb ki, iki ölkə arasındakı yüksəksəviyyəli münasibətlərin bərqərar olmasında dövlət başçılarımızın qarşılıqlı səfərləri mühüm əhəmiyyət kəsb edir. Bu səfərlər zamanı imzalanmış sənədlər qarşılıqlı əlaqələrimizin hüquqi bazasını təşkil edir. Sevindirici haldır ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra İranla dövlət sərhədimizin tam nəzarətə götürülməsi təmin olunub.

İki ölkənin parlamentləri arasındakı əlaqələrdən danışan Milli Məclisin sədri bildirib ki, qarşılıqlı əlaqələrin inkişafında parlamentlərimiz mühüm rol oynayır. Deputatlarımız tərəfindən müntəzəm olaraq qarşılıqlı səfərlər həyata keçirilir. Hər iki ölkənin qanunvericilik orqanlarında fəaliyyət göstərən işçi qrupları parlamentlərimiz arasında körpü rolunu oynayırlar.

Söhbət zamanı Milli Məclisin sədri bildirib ki, artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. İndi Azərbaycanın Ermənistanın işğalından azad edilmiş ərazilərində genişmiqyaslı yenidənqurma və bərpa dövrü başlayıb. Sahibə Qafarova deyib ki, Ermənistan işğal etdiyi ərazilərimizdəki məscidlərimizi, mədəniyyət abidələrimizi və bütün digər tikililəri dağıdıb, infrastrukturu tamamilə məhv edib. Düşmən hətta müqəddəs ziyarətgahlarımızı və məscidlərimizi də təhqir edib.

Münaqişə başa çatsa da, bir sıra problemlər hələ də qalmaqdadır. Belə ki, Ermənistan 30 il ərzində işğal altında saxladığı və Vətən müharibəsində azad etdiyimiz torpaqlarımızda minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir, bununla da müharibə cinayəti törətməkdə davam edir. Beləliklə, onlar məcburi köçkünlərimizin öz doğma yurd-yuvalarına qayıtmalarına mane olmaq istəyir, sərhədlərin delimitasiyası məsələsində təxribatlara əl atırlar.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, 2022-ci il fevralın 26-da Xocalı soyqırımının 30-cu ildönümü tamam olacaq. İnsanlıq əleyhinə törədilmiş belə cinayətlərə hüquqi-siyasi qiymətin beynəlxalq səviyyədə də verilməsi çox vacibdir. S.Qafarova xatırladıb ki, bu günədək bir çox dövlətlər və beynəlxalq təşkilatlar Xocalı soyqırımını tanıyıb. Bunu nəzərə alaraq, İran parlamentinin Xocalı soyqırımı ilə bağlı sənəd qəbul etməsi bəşəriyyəti gələcəkdə buna bənzər hadisələrlə üzləşməkdən qoruya bilər.

Sonra görüşdə iştirak edən Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və xarici işlər nazirinin müavini Fariz Rzayev Azərbaycan-İran münasibətlərinə dair fikirlərini bildiriblər.

Görüşün sonunda hər iki ölkənin parlament sədrləri bir-birilərini qarşılıqlı rəsmi səfərlərə dəvət ediblər.

# Milli Məclisin sədri İran Prezidenti ilə görüşüb

***İranda səfərdə olan Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova avqustun 6-da Prezident Seyid İbrahim Rəisi ilə görüşüb. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin sədri Sahibə Qafarovanı və nümayəndə heyətinin üzvlərini salamlayan Prezident Seyid İbrahim Rəisi onun andiçmə mərasimində iştirak etdiyinə görə Azərbaycan nümayəndə heyətinə təşəkkürünü bildirib. O, Vətən müharibəsində əldə etdiyi Qələbə münasibətilə Azərbaycan dövlətini və xalqını təbrik edib. İran Prezidenti Azərbaycan xalqına firavanlıq və xoş günlər arzulayıb.***



Milli Məclisin sədri Sahibə Qafarova Prezident İlham Əliyevin salamlarını və təbriklərini İran Prezidentinə çatdırıb. S.Qafarova bildirib ki, Azərbaycan dost və qonşu ölkə olan İranla əlaqələrin inkişafına həmişə böyük diqqət yetirmiş və gələcəkdə də bu əlaqələri dərinləşdirmək niyyətindədir. Milli Məclisin sədri qeyd edib ki, siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımız xalqlarımızın ümumi mənafelərinə xidmət edir. Parlamentlər səviyyəsində də əməkdaşlığımız dövlətlərarası münasibətlərin daha da möhkəmlənməsində önəmli rol oynayır. Bu sahədə parlamentlərimizdə fəaliyyət göstərən qarşılıqlı işçi qruplarının üzərinə böyük vəzifələr düşür. Hər iki ölkənin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, aparılan fikir mübadiləsi əlaqələrimizin daha da möhkəmləndirilməsində mühüm əhəmiyyətə malikdir.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, iqtisadi, ticarət və humanitar münasibətlərimizin inkişafında Azərbaycanla İran arasında mövcud olan dövlətlərarası müştərək komissiya uğurla fəaliyyət göstərir.

İran Prezidenti Seyid İbrahim Rəisi Prezident İlham Əliyevin təbriklərinə görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib. Sonra görüşdə regional əməkdaşlığın perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

## Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib



***Avqustun 6-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə cari ilin 6 ayı ərzində aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsi üzrə Komissiyanın növbəti iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, Komissiyanın iclasında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın yerinə yetirilməsinə dair görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

İclasda Komissiyanın sədri tərəfindən ölkədə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin dövlət səviyyəsinə qaldırılmaqla, göstərilən sahədə mübarizə işinin təşkilinin dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilməsi, mübarizə tədbirlərinin gücləndirilməsi, antinarkotik təbliğat, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi qeyd edilərək, qarşıya qoyulmuş vəzifələrin icra vəziyyəti, əldə olunmuş nəticələr, o cümlədən Dövlət Proqramının həyata keçirilməsi istiqamətində aparılan işlərin səmərəliliyinin daha da artırılmasının zəruriliyi Komissiya üzvlərinin diqqətinə çatdırılıb.

Komissiyanın iclasında daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov, Baş prokurorun birinci müavini Elçin Məmmədov, Dövlət Gömrük Komitəsi sədrinin müavini Əsgər Abdullayev, Dövlət Sərhəd Xidməti rəisinin müavini Firuz Şirinzadə, səhiyyə nazirinin müavini Rahim Əliyev, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni təmsil etdikləri qurumlar tərəfindən qeyd olunan sahədə aparılan mübarizə tədbirləri və əldə olunan nəticələr barədə çıxış edərək ətraflı məlumat veriblər.

İclasda ümumilikdə qeyd olunub ki, daxili işlər, gömrük, sərhəd, təhlükəsizlik orqanları tərəfindən müasir telekommunikasiya və informasiya vasitələrinin imkanlarından istifadə etməklə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi gücləndirilib, müxtəlif marşrutlarla narkotiklərin qaçaqmalçılıq yolu ilə daşınması hallarının aşkarlanması üzrə bir sıra qabaqlayıcı profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirilib və cinayətkarlardan külli miqdarda güclü təsirə malik narkotik vasitələr müsadirə edilib. Həmçinin maarifləndirmə istiqamətində ayrı-ayrı sosial təbəqələr üzrə təbliğat işinin təşkili sistemli xarakter daşıyıb və profilaktik tədbirlərin keyfiyyətinin artırılması üçün müvafiq əlavə tədbirlər görülüb.

Komissiyanın iclasında son dövrlərdə narkotik vasitələrin ölkəyə gətirilməsi və istifadəsi ilə bağlı faktların çoxalmasından narahatlıq ifadə edilib, bu cür halların qarşısının alınması üçün müvafiq dövlət qurumlarının və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyi vurğulanıb.

İclasın yekunu olaraq, gömrük-sərhəd keçid məntəqələrində tranzit yükdaşımalarına nəzarətin gücləndirilməsi, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması, reabilitasiya mərkəzlərinin yaradılması, narkomanlığın qarşısının alınması ilə bağlı təbliğat və maarifləndirmə işlərinin təşkili və digər zəruri tədbirlərin həyata keçirilməsi istiqamətində səmərəliliyin daha da artırılması ilə bağlı aidiyyəti qurumlar qarşısında konkret vəzifələrin qoyulmasına dair müvafiq qərar qəbul edilib.

## Fransa portalı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan yenidənqurma işlərindən yazıb


CAUSEUR

De retour du Karabakh

L'Azerbaïdjan lance un vaste projet de reconstruction.

Stigmates de guerre

La lettre de Causeur

Actuellement en kiosque

Fransanın "Causeur" portalında fransız tarixçi və jurnalist Alən Rumestanın "Qarabağa qayıdış: Azərbaycan geniş yenidənqurma planının icrasına başlayır" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə 2020-ci ilin sentyabr-noyabr aylarında Ermənistanla Azərbaycan arasında baş verən müharibə nəticəsində rəsmi Bakının beynəlxalq hüquqla ona məxsus olan və uzun illər işğal altında qalmış torpaqlarını azad etdiyi vurğulanıb. Bildirilib ki, Fransada bu münaqişənin mahiyyətini hələ də anlamırlar və mediada onun haqqında yanlış mülahizələrə, səthi şərhlərə əsaslanan materiallar yayılır.

Azərbaycandakı dini tolerantlıqdan bəhs edən müəllif diqqətə çatdırır ki, paytaxt Bakıda məscidlər, sinaqoqlar, pravoslav kilsələri, hətta erməni kilsəsi mövcuddur və yaxşı vəziyyətdədir.

İşğaldan azad olunmuş torpaqlara səfər edən jurnalist bildirir ki, bu ərazilərdə yeni yol şəbəkəsi inşa olunur, bu da azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtmasına imkan verəcək.

Azad edilmiş ərazilərdə hələ də mövcud olan mina təhlükəsinə toxunan A.Rumestan vurğulayır ki, mina partlayışı nəticəsində insanlar, o cümlədən jurnalistlər həlak olub. Ermənistan isə bütün minaların xəritələrini verməkdən hələ də imtina edir. Bu isə minatəmizləyənlərin işini çətinləşdirir.

İşğal dövründə dağıdılmış Füzuli rayonundan sonra Azərbaycanın qədim şəhəri Şuşada olan jurnalist qeyd edir ki, xarici ölkələrdən çoxsaylı nümayəndələr buraya səfər edirlər. Şəhərdə döyüşlərin izləri hələ də qalmaqdadır - binaların üzərində güllə izləri, parçalanmış dam örtükləri, məhv edilmiş mədəni irs. Azərbaycanın dahi şəxsiyyətlərinin (Bülbül, Üzeyir Hacıbəyli, Natəvan) birinci müharibə zamanı güllələnmiş heykəlləri də əvvəlki yerinə qaytarılıb. Şuşada artıq bərpa-quruculuq işlərinə başlanılıb.

Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli Bəyanata toxunan müəllif qeyd edir ki, bu, Cənubi Qafqazda həyatın normala qayıtması üçün yol xəritəsidir. Vurğulanır ki, indi Azərbaycanın qarşısında böyük çağırış var. Belə ki, rəsmi Bakı ərazisinin səkkizdəbir hissəsini demək olar tamamilə yenidən qurmalıdır. Bunun üçün isə, ilk növbədə, ərazilər minalardan təmizlənməlidir.

Jurnalist sonda qeyd edir ki, azərbaycanlılar üçün münaqişə bitib, Azərbaycanın ərazi bütövlüyü təmin olunub. İndi ümid keçmişi, müharibələri, ağrı-acını unudaraq bu torpaqlarda yenidən bir yerdə yaşamaqdadır. Sülhdən başqa yol yoxdur.

# Şuşa Bəyannaməsi Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyətində də mühüm istiqamət oldu





***Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır. Bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olmuşdur.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

E.Əhmədov qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddətdə davam edən hərbi təcavüzünə son qoyulmasında, işğal altındakı torpaqların azad olunmasında qardaş Türkiyə dövlətinin həm beynəlxalq aləmdə, həm informasiya məkanında, eləcə də mənəvi dəstəyi mühüm rol oynadı.

Azərbaycan Prezidenti İlham Əliyevin Vətən müharibəsinin gedişində xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri və xalqa müraciətləri bütün dünyada yaşayan azərbaycanlıları ölkəmizin milli maraqları, birlik və həmrəyliyi istiqamətində birləşdirici amilə çevirdi.

Son illərdə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində həm dövlət, həm də qeyri-hökumət təşkilatları səviyyəsində bir sıra mühüm tədbirlər görülüb, Azərbaycan icmalarına türk diasporunun təşkilatçılığı ilə keçirilən tədbirlərdə fəal iştirak etmək tövsiyə olunub. Keçirilən tədbirlərin daha da uğurlu alınmasında və diasporlar arasında münasibətlərin uzunmüddətli qurulmasında Azərbaycanın və Türkiyənin dövlət başçılarının da bu istiqamətdə ictimai-siyasi fəaliyyətləri ilə hər zaman vahid platformadan çıxış etməsi diqqəti cəlb edir. "Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası"nda nəzərdə tutulmuş vəzifələrin həyata keçirilməsi istiqamətində səylərin gücləndirilməsi, diasporlarımız arasında əlaqələrin getdikcə möhkəmlənməsi, xüsusilə vahid platformadan çıxış etməsi hər iki dövlətin daim bir-birinin yanında olmasının bariz nümunəsidir.

Biz buna Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan hərbi təcavüzünə cavab olaraq Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları zamanı, xüsusilə 44 günlük Vətən müharibəsinin getdiyi günlərdə Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyətlərində, həmçinin dünya informasiya məkanına operativ və obyektiv məlumatların çatdırılmasında da şahid olduq.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

2021-ci il iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad edilən, Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərinə səfər etməsi və iki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisədir.

Bununla yanaşı, Şuşa Bəyannaməsində siyasi, iqtisadi-ticarət, mədəniyyət və digər bütün sahələri əhatə edən birgə əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Sənəd həm tarixi, həm siyasi, həm də hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş şəkildə birgə fəaliyyət də milli maraqlar baxımından xüsusi əhəmiyyət kəsb edir.

Sənəddə, xüsusilə bildirilir ki, hər iki dövlət müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər. Eyni zamanda, göstərilir ki, tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Bu baxımdan, 2021-ci il iyulun 27-də Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə İkinci Qarabağ müharibəsindən sonra bu yay Vətəndə olan 24 ölkədən 72 nəfər Azərbaycan diaspor nümayəndələrinin "Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı altında Şuşaya səfəri və diaspor nümayəndələrinə bu qədim şəhərin çoxəsrlik tarixi, zəngin mədəniyyət abidələri barədə ətraflı məlumatların verilməsi Şuşa Bəyannaməsinin müddəalarına sadiqliyimizin bariz nümunəsidir.





Ümumilikdə, bu mühüm sənəd iki qardaş və dost dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətlərini təsdiq edir. Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxışlarında bildirdilər ki, Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaqdır.

Bu baxımdan, Azərbaycan-Türkiyə dostluğu, həmrəyliyi və strateji tərəfdaşlığı həm dünya üçün nümunə, həm də regional təhlükəsizlik baxımından olduqca əhəmiyyətlidir.

# İƏT-ə üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyi Ermənistanın təxribatı barədə xəbər yayımlayıb




***İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) rəsmi saytında Ermənistan-Azərbaycan sərhədinin Kəlbəcər rayonu ərazisində erməni silahlı qüvvələrinin Ordumuzun mövqelərini atəşə tutması barədə Azərbaycan Müdafiə Nazirliyinin məlumatı yayımlanıb.***

AZƏRTAC-a istinadla yayılan xəbərdə bildirilib ki, sərhədin bu istiqamətində ermənilərin təxribatı davam edir. Diqqətə çatdırılıb ki, avqustun 5-də Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən, Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqələrində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Sədərək rayonunun Heydərabad, Kəlbəcər rayonunun İstisu yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasiləsiz atəşə tutub.

Xəbərin sonunda vurğulanıb ki, Müdafiə Nazirliyi qarşı tərəfin cavab atəşi ilə susdurulduğunu və əməliyyat şəraiti bölmələrimizin nəzarəti altında olduğunu bəyan edib.

# YAP Göygöl rayon təşkilatının XI hesabat konfransı keçirilib










***Avqustun 6-da Yeni Azərbaycan Partiyası Göygöl rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Gündəlik təsdiq edildikdən sonra YAP Göygöl rayon təşkilatının sədri Turani Əliyev hesabat məruzəsi ilə çıxış edib. Məruzədə bildirilib ki, Heydər Əliyev dühasının zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü, ən monolit siyasi təşkilatdır və ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək siyasi partiya mövcud deyildir.

Qeyd olunub ki, YAP Göygöl rayon təşkilatı öz fəaliyyətini partiya rəhbərliyinin tövsiyə və tapşırıqlarına uyğun qurub. Rayon təşkilatı özündə 121 ərazi ilk partiya təşkilatını birləşdirir. Hazırda rayon üzrə partiya üzvlərinin sayı 5445 nəfər təşkil edir ki, onların da 2789 nəfəri qadın, 1967 nəfəri gənclərdir. Hesabat dövrü ərzində rayon təşkilatında partiya sıralarına 380 nəfər qəbul edilib. Onların 164 nəfərini qadınlar, 231 nəfərini isə gənclər təşkil edir.

Sonra YAP Göygöl rayon təşkilatı Nəzarət-Təftiş Qrupunun sədri İftixar Hüseynovun hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, YAP Göygöl rayon təşkilatının Şura üzvü, Göygöl rayon A.Şəmşir adına 7 illik uşaq musiqi məktəbi ərazi ilk partiya təşkilatının sədri Nuranə Quliyeva, rayon təşkilatının Şura üzvü, Yeni Qızılca kənd İƏD-i üzrə nümayəndəliyi ərazi ilk partiya təşkilatının sədri Sahil Babayev, rayon təşkilatının Topalhəsənli kənd tam orta məktəb ərazi ilk partiya təşkilatının üzvü Yeganə İsgəndərova və rayon təşkilatının Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu ərazi ilk partiya təşkilatının sədri Mahir Hacıyev çıxış edərək rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ötən illər ərzində böyük inkişaf yolu keçdiyini bildirib. O qeyd edib ki, fəaliyyət göstərdiyi 29 il ərzində partiyamız möhtəşəm uğurlara imza atıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilib.

Onun sözlərinə YAP yeniliklərə böyük önəm verən partiyadır və bu baxımdan partiyanın VII Qurultayında mühüm qərarlar qəbul olunub.

Ə.Tağıyev yeni mərhələdə partiyanın yerli təşkilatlarının üzərinə düşən vəzifələrdən də ətraflı şəkildə bəhs edib, YAP Göygöl rayon təşkilatının fəaliyyətinə uğurlar arzulayıb. Qeyd edək ki, YAP Göygöl rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



# Della Miles: Azərbaycana, Şuşaya səfər etdiyim üçün çox xoşbəxtəm



***Hazırda vətənim ABŞ-dan uzaqdayam. Bu gün Azərbaycanda, Şuşada olmaqdan çox xoşbəxtəm. AZƏRTAC xəbər verir ki, bu fikirləri dünya şöhrətli musiqiçi, Maykl Ceksonun və Uitni Hyustonun vokalçısı olmuş Della Miles Şuşaya səfəri zamanı deyib.***

Dünya şöhrətli müğənni bildirib ki, tarixi öyrəndikcə və dərinliyinə vardıqca, gələcəyin inkişaf istiqamətini müəyyən etmək mümkündür.

Della Miles, həmçinin Azərbaycanın, xüsusilə də Qarabağın muğam beşiyi olmasına münasibət bildirib: "Bir musiqiçi kimi muğam sənətinin texniki cəhətdən çox ustalıq tələb etdiyini bilirəm. Bu çətin işin öhdəsindən asanlıqla gələn Azərbaycanın muğam ifaçılarını göründə valeh oluram. Muğam sənətinə və onun mahir ifaçılarına böyük hörmətim var. Burada bir daha əmin oldum ki, Şuşa mədəniyyətin, musiqinin beşiyidir".

O, ölkəmizə səfəri çərçivəsində azərbaycanlı xanəndə və piano ifaçısı, əməkdar artist Qoçaq Əsgərovla birgə layihə üzərində işlədiklərini də diqqətə çatdırıb.

# "Çıxışlar təxribatdan başqa heç nəyin göstəricisi deyil"



**Milli Məclisin deputatı Cavid Osmanov SiA-ya müsahibə verib. Həmin müsahibəni sizə təqdim edirik:**

***- Son zamanlar Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər və parlamentin buraxılması ilə bağlı fikirlər səsləndirilir. Ümumiyyətlə, bu nə qədər əsaslıdır, hazırkı dövrlərdə buna ehtiyac varmı?***

- Birincisi, onu demək istəyirəm ki, ölkədə həmişə cənab Prezidentin başçılığı ilə köklü islahatlar aparılıb. Xüsusilə də, 11 aprel 2018-ci il prezident seçkilərindən sonra islahatlar bir çox sahələrdə aparılmağa başlayıb. Burada biz kadr islahatlarından, struktur islahatlarından, sosial-siyasi islahatlardan danışa bilərik. Yeni həyatın bir sıra sferalarını əhatə edəcək islahatlar həyata keçirilib. Heç də təsadüfi deyil ki, dünyanın ən nüfuzlu reytinq dərc edən "Doing Business" hesabatlarında Azərbaycan 10 ən islahatçı ölkələr sırasına daxil edilib. Bildiyiniz kimi, artıq 2019-cu ilin sonlarında hakim Yeni Azərbaycan Partiyası belə bir təşəbbüslə çıxış etdi ki, hakimiyyətin qanunverici qolunda, yəni parlamentdə növbədənkənar seçkilər keçirilsin. Bu da baş tutdu. Bildiyiniz kimi, 2020-ci ilin fevral ayının 9-da parlament seçkiləri oldu. İndiki məqam əlbəttə ki, Azərbaycanın dünyada nüfuzunun günbəgün artması ilə müşahidə olunan zamandır. İstər son il yarım müddətində koronavirusla Azərbaycanın uğurlu mübarizəsi, Prezidentin bu mübarizədə yalnız milli ruhda, regional ruhda deyil, həm də qlobal ruhda çıxış etməsi, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ilk beynəlxalq təşkilatlar səviyyəsində iclasın keçirilməsi, Türkdilli Ölkələrin Zirvə toplantısı, daha sonra Qoşulmama Hərəkatının təmas xətti formatında Zirvə görüşünün keçirilməsi kimi hadisələr beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu daha da artırıb. Həmçinin ÜST tərəfindən Azərbaycanın koronavirusla mübarizəsi model kimi təklif olunub. Belə olan halda bəzi qüvvələr çalışır ki, bütün bu işlərə zərbə vursunlar və kölgə salsınlar. Əlbəttə, bunun kökündə vətən müharibəsində birmənalı Azərbaycana qarşı qərəzli mövqedə dayanan qərb dairələri, erməni lobbisi hansı ki, Ermənistanı idarə edib uzun illər ərzində və onların əlaltısı olan daxili xəyanatkar, qaragüruh qüvvələr dayanır. Parlament seçkilərinə heç bir ehtiyac yoxdur. Koronavirus pandemiyası, münaqişə və post-münaqişə dövründə parlament əlindən gələni əsirgəməyib, əsirgəmir və əsirgəməyəcək. Parlament öz vəzifəsini olduqca yaxşı yerinə yetirir.

***- Rusiya dumasının deputatı və partiya sədri olan Jirinovski Azərbaycana qarşı qərəz və təhdid dolu bəyanatlar səsləndirib. Sizcə, bunun arxasında nə dayanır?***

- Jirinovskinin bu çıxışından bir neçə gün əvvəl Azərbaycan Prezidenti Rusiyada səfərdə olub. Həmin bu səfər biz gördük ki, özü-özlüyündə iki ölkə münasibətlərinə töhfə verdi. Münasibətlərin inkişafında vacib addımlar atılıb. Burada vacib məqamlardan biri odur ki, artıq tarixin arxivinə düşən sözlərdən istifadə olunmadı. Yeni status kimi, Dağlıq Qarabağ kimi sözlər bu görüşdə işlənməyib. Əksinə, bu gün Azərbaycan tərəfindən dünya siyasi leksikomuna daxil edilmiş dünyanın aparıcı mediaları tərəfindən tez-tez işlənən terminlərdən istifadə olunub və bu məsələ müzakirə olunub.

Bildiyimiz kimi, 44 günlük müharibədən sonra üçtərəfli bəyanat Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanıb. Bu bəyanatlardan irəli gələn müddəaların həyata keçirilməsi xüsusilə də, kommunikasiya vasitələrinin açılması üçün 11 yanvar 2021-ci ildə Moskvada növbəti bəyanat imzalanıb. Azərbaycan Prezidentinin Moskva səfərində əsas mövzu, 10 noyabr və 11 yanvar üçtərəfli bəyanatların müddəalarının həyata keçirilməsi olub. Bu görüş göstərdi ki, Rusiya 44 günlük müharibədən sonra Azərbaycanın regionda yaratdığı yeni geosiyasi vəziyyətə konstruktiv baxış sərgiləyir. Bu baxımdan mövqeləri Azərbaycanla üst-üstə düşür. Dünyada erməni diasporasının ən güclü olduğu üç ölkədən biri Rusiyadır. Belə olan halda erməni lobbisi Jirinovski kimi adekvat olmayan, həmişə qadınlara qarşı şiddətlə yadda qalan hər bir təxribat açıqlamasını edə biləcək siyasətçinin dilindən istifadə etdi. Jirinovski özü anlamır ki, bunun özü Rusiyanın beynəlxalq münasibətlər sisteminə ziyandır.

***- Paşinyanın Rusiyaya səfəri olacaq və bu səfərdən nələri gözləyə bilərik?***

- Müharibənin bitməsindən təqribən 8 ay keçir. Burada olan proseslər yalnız və yalnız imzalanan üçtərəfli bəyanatdan keçir. Burada mən Rusiya prezidentinin müharibədən sonra səsləndirdiyi fikri təkrarlamaq istəyirəm. Əgər Ermənistan üçtərəfli bəyanatın müddəalarından boyun qaçırarsa, bu Ermənistan üçün özünüqəsd demək olardı. Əlbəttə ki, bu üçtərəfli imzalanan bəyanatın müddəalarına süni əngəl törətmək istəyən qüvvələr var. Sərhəd bölgəsində silahlı qüvvələrimizə qarşı təxribat törədilməsi, işğaldan azad edilmiş ərazilərdə minalanmış ərazilərin xəritəsinin verilməməsi, müvəqqəti olaraq rus sülhməramlı kontingentinin nəzarətində olan ərazilərdən erməni terrorçularının çıxarılması kimi məsələlər həllə də qalır. Əlbəttə, bütün bunlar vaxt tələb edən məsələlərdir. Ancaq əvvəl-axır bütün bu məsələlər öz həllini tapacaq.

***- Paşinyan maksimum çalışır ki, sülh sazişinin imzalanmasını və gərginliyinin müddətini artırsın. Sizcə bu nə qədər davam edə bilər?***

- Ermənistan 30 il müddətində torpaqları işğal altında saxlayanda onun iqtisadiyyatı demək olar tənəzzülə uğrayıb. Ölkədə demoqrafiya göstəriciləri mənfiyə doğru getdi. Ölkədə əhalinin sayı azaldı. Ölkə əhalisi ölkədə vəziyyət pis vəziyyətdə olduğu üçün ölkəni tərk elədilər. Bütün bunların səbəbi erməni hərbi siyasəti, işğalçılığı olub. Azərbaycanın apardığı düzgün siyasət nəticəsində Ermənistan dalan bir ölkəyə çevrildi. Qaldı Nikol Paşinyanın çıxışına bu mümkün olan hal deyil. Üçtərəfli bəyanatda hər bir məsələ öz həllini artıq tapır. Paşinyanın bu çıxışları boş və cəfəngdir. Misal üçün Paşinyan bundan iki il əvvəl nə demişdi "Qarabağ Ermənistandır və nöqtə" amma reallıq nədir? Qarabağ Azərbaycandır və nida. Bu tip çıxışlar təxribatdan başqa heç nəyin göstəricisi deyil və ola bilməz. Ermənistanın hazırda yeganə çıxış yolu Azərbaycanla sülh müqaviləsi imzalaqdan başqa bir şey deyil.

***Turqay Musayev***



# YAP Daşkəsən rayon təşkilatının X hesabat konfransı keçirilib











***Avqustun 6-da Yeni Azərbaycan Partiyası Daşkəsən rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib.***

Öncə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev hesabat məruzəsi ilə çıxış edib. M.Yolçuyev bildirib ki, hazırda rayon təşkilatı 70 ərazi ilk partiya təşkilatında 4700 partiya üzvünü birləşdirir. Onlardan 2000 nəfəri qadın, 1000 nəfəri isə gənclərdir. IX konfransdan keçən müddət ərzində 427 nəfər partiya sıralarına qəbul olunub.

M.Yolçuyev hesabat dövrü ərzində keçirilən tədbirlərdən bəhs edərək bildirib ki, məqsəd hər bir tarixi hadisənin əhəmiyyətini bugünkü və gələcək nəsillərə çatdırmaqdır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin düşünülmüş və bugünümüz üçün müəyyənləşdirilən siyasətinin təməlində azərbaycançılıq ideologiyası dayanır. Kimliyindən, harada yaşamasından, siyasi mənsubiyyətindən asılı olmayaraq hər kəs Vətəninə, torpağına bağlı olmalıdır. Necə ki, xalqımız 44 günlük Vətən müharibəsi dövründə dünyaya dəmir yumruq kimi birliyimizi, həmrəyliyimizi nümayiş etdirdi. Bu gün həmin birlik tarixi sahibinə qovuşan Qarabağımızda bərpa və quruculuq işlərində özünü nümayiş etdirir.

Sonra YAP Daşkəsən rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Yaşar Məhərrəmovun hesabatı dinlənilib.

Müzakirələr zamanı Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, rayon təşkilatının sədr müavini Namiq Süleymanov, rayon təşkilatı Qadınlar Şurasının sədri Rəna Aslanova, Daşkəsən Rayon İcra Hakimiyyəti Aparatı ilk partiya təşkilatının sədri Malik Ələsgərov, YAP Daşkəsən rayon təşkilatı Gənclər Birliyinin İdarə Heyətinin üzvü Elşən Alıyev çıxış edərək təşkilatın hesabat dövrü ərzində gördüyü işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, zamanın tələbi, xalqın istəyi ilə yaranan və qısa müddətdə ümumxalq partiyasına çevrilən YAP-ın bütün uğurlarının arxasında xalqın inamı və bu inamdan irəli gələn dəstəyi dayanır. Xalqımız ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 18 ildə cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyinə böyük inam və etimad göstərir. Yeni Azərbaycan Partiyası Azərbaycanın, ümumilikdə regionun güclü siyasi təşkilatı kimi inkişaf etməklə bərabər, dünyanın qabaqcıl ölkələrinin aparıcı siyasi partiyalarının təcrübəsini də tətbiq edir. Fəaliyyətində beynəlxalq əməkdaşlığa xüsusi önəm verən Yeni Azərbaycan Partiyası bir çox ölkələrin hakim partiyaları ilə əməkdaşlıq edir.

Ə.Tağıyev ölkəmizin uğurlarında Yeni Azərbaycan Partiyasının böyük rolu olduğunu önə çəkərək, YAP Daşkəsən rayon təşkilatının gələcək fəaliyyətinə uğurlar arzulayıb.

Konfransda YAP Daşkəsən rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Qadınlar niyə yaşlarını g

***Bəzi qadınlar, xüsusilə də 30-dan çox yaşı olan xanımlar bunu özlərinə kompleks edərək yaşlarını gizlədirlər. Bəs buna səbəb nədir? Ümumiyyətlə belə bir deyim var ki, "qadından yaşını soruşmazlar". Yəni həqiqətən qadından yaşını soruşmaq etik deyil? Orta yaşda bütün qadınlar eyni simptomları göstərə bilməz. 35 yaşdan yuxarı qadınların çoxu çətin bir dövrdən keçir. Qadınların çoxunun qəbul etmək istəmədiyi bu orta yaş sindromu əslində müvəqqəti bir böhran ola bilər. Bəs, bu dövrü necə asanlıqla aşmaq olar? SiA məsələ ilə bağlı araşdırma aparıb sosioloq, ekspert, psixoloq və şəhər sakinlərinin fikirlərini öyrənib.***



Orta yaş adlandırılan 40-lı yaşlar, bir insanın həyatının ümumiyyətlə durğunlaşdığı, iş və ictimai həyatının yavaşladığı bir dövrdür. Bu dövr çox ziddiyyətli duyğuları əhatə edir. Müvəqqəti bir dövr olduğu üçün buna orta yaş sindromu deyilir. Qadınlar kişilərdən daha duyqusal olduqları üçün bu dövrdə daha həssas ola bilərlər və bu dövrdə çətinliklər yaşaya bilərlər. Bir çox araşdırmada hormonların bu vəziyyətə təsir etdiyi tez-tez söylənilsə də, bu mövzuda qəti bir diaqnoz qoymaq doğru deyil.

Orta yaşda bütün qadınlar eyni simptomları göstərə bilməz. Əsas ümumi vəziyyət emosional qarışıqlıq və ziddiyyətlərdir. İnsan həyatı ilə bağlı suallar verməyə, nə etdiyini və etmədiyini gözdən keçirməyə peşman ola bilər. Etmək istədiyi işlərə çox gec qaldığını, yetərincə gənc olmadığını düşünə və imtina edə bilər.

Bu dövrdə qadınlarda yaşlanma səbəbi ilə kilo, saç tökülməsi, saç ağarma və bədəndə çatlaqlar ola bilər. Bu vəziyyətdən asılı olaraq, qadın öz görünüşündən narahat olacaq və daha çox bəyənilməmək qorxusunu yaşayacaq.

Qadınların çoxu bu dövrdə daha gözəl olmaq üçün qocalma əleyhinə müalicələrə (estetik əməliyyatlar) müraciət edə bilərlər. Geydiyi paltarlar daha şık və ya orta yaş həddindən artıq ola bilər. Bu dövrdə ən çox rast gəlinən problemlərdən biri boşanmadır. Duyqusal qarışıqlıq cütlərin ailə nizamını da poza bilər. Görünüşünə çox əhəmiyyət verən qadınlarda orta yaş sindromu daha sıx və ağrılı ola bilər.

Bu dövrü rahat keçmək üçün şəxs yaşadığı vəziyyəti müəyyənləşdirməli və paylaşmalıdır. Bu müddət ərzində evli cütlüklər daha çox danışmalıdır. Hər yaşın öz gözəlliyə sahib olduğu düşünülməli və fiziki dəyişikliklər həyatın geri dönüşü kimi qəbul edilməlidir. Yeni hobbi əldə etmək olar (zərgərlik kursları, səyahət). İnsanın sağlamlıq vəziyyətinə görə idmana üstünlük verilə bilər.

Şəxs özü ilə barışmalı, yaşamağı və özünü sevməyi həyat tərzi olaraq təyin etməlidir. Yaşadığı problemlərin öhdəsindən gələ bilmirsə və güclü duyğuları varsa, mütləq psixoloji yardım almalıdır. Hər bir insanın həyatında yaş böhranları olur. Bu böhranlar hər kəsdə olur və müəyyən yaş dövrlərində ümumi hisslər yaşanır. İlk yaş böhranı - həyatın birinci ilində olur. Bu mərhələdə insanda ətraf aləm barədə fikir formalaşır. Bu mərhələ insan həyatında vacib dövrdür, çünki bu zaman şəxsiyyətin gələcək inkişafı müəyyən olunur. Növbəti böhran yaşı 3 yaşdır. Böhran uşağın inadkarlıq göstərməsi - "xarakter nümayiş etdirməsi" ilə özünü göstərir. Yaş böhranı 12-14 yaşında da baş verir. Bu yaşda insan özünün cinsi mənsubiyyətini anlamağa başlayır. Bu dövrdə o öz müstəqilliyini və sərbəstliyini sübut etməyə çalışır. O bütün məhdudiyyətləri aqressiv və kəskin qarşılayır. Növbəti yaş böhranı 18- 20 yaşlarında olur. Eyni böhran 25-27 yaşda müşahidə olunur. Amma ən kəskin böhran 35 yaş böhranı sayılır. Bəzi qadınlarda bu yaşlarda meteoasılılıq başlayır. Bu yaşda insan öz nailiyyətlərini qiymətləndirir və onlara şübhə ilə yanaşır.

Məsələ ilə bağlı **sosial ekspert, jurnalist Rövşən Rəsulov**



da münasibət bildirib: "Dünyanı gözəllik xilas edəcək", deyə bir kəlam var. Məncə, bu kəlam yalnız fiziki deyil, həm də mənəvi gözəlliklə ölçülməlidir. Təbii ki, dünyamıza gözəllik qatan məhz xanımlardırlar və onlarsız dünyanı təsəvvür etmək qeyri-mümkündür. Sualınıza gəldikdə isə, xanımların doğum günü yaşlarını gizlətmək məsələsi artıq bir ənənəyə çevrilib. Yəni onlar yaşlarını gizlətməklə qarşı cinslərə-kişilərə həmişə cavan, təravətli görünmək marağındadırlar. Yeri gəlmişkən, onu da deyim ki, elə kişilərdə də bənzər centlmenlik münasibəti mövcuddur, onlar qadınlardan yaş soruşmurlar. Düzdür, indi belə davranış xüsusiyyətləri artıq unudulur, amma hələ ki, qalmaqdadır".

"Xanımların yaşlarını gizlətmək maraqları başqa yöndən də izah edilə bilər. Misal üçün, bəzən elə olur ki, sevgi yaşayan qadın özündən bir neçə yaş cavan şəxsə aşiq olur və reallıqda hər iki cütlüyün yaş fərqi üzdə görünmür. Kənardan baxan insanlar onların həmyaşıd olduqlarını sanırlar. Amma bunun belə olmadığını yalnız qarşı tərəf bilir. Əgər insanlara yaş fərqi deyilməsə, heç kim bunu bilməz. Necə deyərlər, sirr kimi saxlanılır. Belə məsələlər kişilərdə də olur və eyni hal yaşanır".

"Şəxsən mənim üçün yaşlı, cavan, xanım anlayışı yoxdur. Qadınlar hər zaman gözəldirlər və həyatımıza, dünyamıza təravət qatırlar. Xanım gözəlliyini, anlayışını dərindən dərk edən, qiymətləndirən istənilən kişi üçün onun neçə yaşının olması qətiyyən maraqlı deyil. Qoy xanımlarımız hər zaman öz gözəllikləri, təravətləri və ruhları ilə gerçək yaşlarını gizlətsinlər".

**Psixoloq Aytən Ələkbərova**



isə məsələnin psixoloji yanlarına toxunub: "İnsan özünə və ətraf aləmə təsir göstərmək, onu dəyişdirmək kimi məsələlərdə daim maraqlı olur. Yəni, bəşəriyyətin əldə etdiyi bütün nailiyyətlər insan zəkasının, psixikasının hesabına başa gəlir. Görəsən insan psixi imkanlarının həddi - hüdudu varmı? Əgər varsa onu fəth etmək mümkündürmü? Təbiidir ki, artıq burada insanları daim maraqlandırmış və bundan sonra da maraqlandıracaq bir çox suallar olur, yanaşmalar olur. O yanaşmaların içərisində insanın həyatda olması, doğulması, böyüməsi, gəncləşməsi, yaşa dolması var. Bunlar isə təbii ki, yaşın üzərində artıq özünü göstərməyə başlayır. Yəni, artıq imkanlar hərəkətdə, əməldə reallaşır. İnsan faktoru istər qadın olsun, istər kişi olsun təbiidir ki, həmişə diqqətə və xoş sözə ehtiyac duyur. Sanki bu xoş söz onun həyatını yenidən dəyişərək, psixosomatik olaraq onu ruhlandırır".

"Psixo ruh, somatika bədən deməkdir. İnsanın ruhu bədəninin ən əsas, ən vacib yəni, onu həyatda saxlayan ən gözəl bir sütunudur. O sütun isə insanlara eyni zamanda xoş söz, dəyərdən ibarətdir. Qadınlar 30 yaş yubileyini belə çox böyük bir həvəslə keçirdirlər. Hətta hər kəsə "artıq 30 yaşım olur" deyərək bunu çox həvəslə dilə gətirirlər. 30-dan yuxarı isə sanki bu illər artıq çox gəlməyə başladı və bu çox gəldiyi zaman "görəsən, mən niyə belə tez qocaldım düşüncələri" və qəflətən bir qadın salonunda oturub onun bəzəkli-düzəkli çıxmasına, "maşallah 15 yaşında qıza oxşayırsan cümləsi" onu ruhən artıq həyata yenidən bağlayır. Bu səbəbdən insanlar bəzən o gözəl sözləri eşitsin deyə yaşını demir".

"Qadınlar bir neçə kriteriyalara bölünürlər. Yəni, onlar hansı kriteriyalarda yaşını gizlədirlər? Və hansı kriteriyalarda heç çəkinmədən deyirlər? Demək ki, burada qadının özgüvəni onun birbaşa yaşını gizlətməməyə gətirib çıxarır. Bəzən görürsən ki, 40 yaşından sonrakı yaş dövründə xanımlarımız rəng baxımından bəzi al-əlvan rənglərə üstünlük verirlər. Sanki o onların çöhrəsini açır və daxili ruh yaşlarının kiçik olmasına gətirib çıxarır. Qadın yaşını gizlətməkdə psixi ehtiyatını əldən vermir. Yəni, psixi ehtiyatını əldən verməmək üçün öz yaşı haqqında məlumat vermir. Amma daha güvənli xanımlar təbiidir ki, bunu daha çox pafosla, ürəklə deyirlər".

**Sosioloq Lalə Mehralı** da öz



fikirlərini qeyd edib: "Bunu mən həmişə fikirləşmişəm və gərəksiz, absurd hesab etmişəm ki, "insan yaşını niyə gizlətməlidir? Bu insanı niyə narahat etməlidir?" Özgüvəni yerində olan xanımlar məncə heç vaxt yaşını gizlətməz. Qadınlardan yaşın soruşulması məsələsinə gəlincə isə bunun etika, estetika ilə hər hansı bir bağlantısının olduğu qənaətində deyiləm. Qadının yaşını soruşmaq mədəniyyətsiz olmaq demək deyil, yaşını gizlətmək hansı məntiqə sığır onu da başa düşə bilmirəm. Bəzən ola bilər insan yaşından böyük görünsün və bunu qəbul etmək istəməsin. Bu səbəbdən də həmişə yaşını gizlətməyə çalışır. Amma yaşından kiçik görünən insanlar da var. Onlar da yaşını gizlətməyə çalışır. Yəni əslində məntiqlə heç bir bağlantısının olmadığını düşünürəm".

"Bir də ola bilsin ki, işə qəbul məsələlərinə görə qadınlar özlərində məcburiyyət hiss edib yaşını gizlədə bilər. Axı biz yaxşı bilirik ki,

# izlədir? - ARAŞDIRMA

işə qəbulda xüsusilə də qadınlarda kriteriyalar təyin olunur, yaş çərçivəsi müəyyənləşdirilir. Bu baxımdan qadınlar bu səbəbə görə yaşını gizlədə bilər. Yəni misal üçün qadın 40 yaşındadır, amma görünüşcə 35 yaşını göstərir. Bu halda 40 yox 35 yaş deməyi üstünlük hesab edir ki, iş yerində yaşı ilə bağlı problem yaranmasın. Tutalım hər hansı bir qeyri-rəsmi bir iş yeridir, sənəd tələb etmirlər. Məsələn, xadimə və günəmuzd kimi işləri nəzərdə tuturam. Bu halda ondan sənəd tələb olunmur, sənədinə baxılmır. Şifahi hansı yaşı deyirsə, o yaş da qəbul olunur. Bu baxımdan, yaşını ona görə gizlədə bilər ki, işi ilə bağlı problem yaşamasın".

Ekspert, psixoloq və sosioloq rəyləri ilə yanaşı şəhər sakinlərinin, xüsusilə də fərqli yaş qruplarında xanımların fikirlərini öyrəndik:

**Şəhər sakini Alidə Qarayeva:**



"Mənim 42 yaşım var. Kimsə məndən yaşımı soruşanda içimdə istəmsizcə kompleks yaranır. Düşünürəm buna səbəb odur ki, qadınlar həmişə eyni yaşda, yəni cavan qalmaq istəyirlər. Onlar düşünür ki, zaman keçdikcə qocalıb təravətini itirəcəklər. Ümumiyyətlə qadınlar yaş, çəki, xarici görünüş kimi mövzularda həssasdırlar və asan qırıla, küsə bilərlər".

**Şəhər sakini Aidə Qədimeliyeva:** "Heç vaxt yaş, çəki və boyu-



mu gizlətmirəm. Yaşımı kim soruşsa, çəkinmədən deyərəm. İnsan gərək özünü sevsin. İnsan hər yaşda gözəldir. Daha doğrusu, hər yaşın öz gözəlliyi, özəlliyi var. Yaşını gizlədənlər kompleksli insanlardır. Məncə yad insanın qadından yaşını soruşması heç etik deyil. Yaxınların soruşması isə nisbətən normal qarşılana bilər".

**Şəhər sakini Aliyə Qarayeva:**



"Qadınlar doğum günlərində və yaxud adi günlərdə yaşlarını demək istəmirlər. Ona görə ki, onlarda yaş kompleksi var. Onlar sanki yaşlaşmaqdan qorxurlar və qocalmaq istəmirlər. Yaşları artdıqca sanki acizləşirlər, özgüvənləri itir. Ən əsası da odur ki, qarşı cinsin onların yaşını bilməsini istəmirlər. Bu qadınların ən zəif nöqtəsidir. Sanki yaşları artdıqca gözəllik, təravət itir və özlərini ətraf aləmdə lazımsız hesab edirlər. Bu səbəbdən onlar doğum günündə çox duyğusal olurlar".

**Şəhər sakini Yeganə Əliyeva:**



"Mən belə halları heç sevmirəm. Bir insan yaşını niyə gizlətməlidir ki?! Nə varsa, odur da. Günümüzdə kifayət qədər yaşını gizlədən qadınlar var. Məncə bu heç düzgün deyil. Amma məncə bu onlarda qocalıq qorxusundan gələn bir düşüncədir".

**Şəhər sakini Aypara Vəliye-**



**va:** "Qadınlar yaş komplekslərinə sahibdirlər. Çünki özlərini yaşlarından daha gənc göstərməyə çalışırlar. Buna görə də, yaşlarının soruşulmasını istəmirlər. Qadınlar həmişə gənc və gözəl görünmək istəyirlər".

**Şəhər sakini Aytən Məmməd-**



**li:** "Elə insanlar var ki, tam səmimi şəkildə öz yaşını deyir. Məndən həmişə soruşurlar ki, "neçə yaşın var?". Mən də həmişə cavabında deyirəm ki, "neçə yaş verərsən?". Yəni, mən o yaşı özümə vermirəm və özümü cavan hiss edirəm. Bəlkə də insanlar qocalmaq istəmədiyi üçün bu addımı atırlar. Yəni, özlərini cavan hiss edirlər və istəmirlər ki, qarşılarındakı insan onların yaşını bilsin. Bəlkə də, qınanmaqda qorxur ki, birdən kimsə deyər ki, "neçə yaşı var, amma etdiyi hərəkətə bax". Kişilərlə nisbətdə xanımlar daha çox yaşını gizlədir. Qadınlar arasında isə daha çox yaşlı xanımlar bunu gizlədir".

**Şəhər sakini Aynur Məmməd-**



**li:** "Çünki, qadınlar yaşlanmaq istəmirlər. İstəyirlər ki, həmişə gənc və təravətli qalsınlar. Qadının neçə yaşı olursa-olsun, həmişə uşaq kimi qayğı və sevgiyə ehtiyacı var. Bəzi xanımlar da var ki, 40 yaşı var amma 25 yaşında qız kimi gənc qalıb. Burada baxımdan, özünəqulluqdan və genetikadan da çox şey asılıdır".

**Şəhər sakini Ülkər Orucova:** "Bu xüsusiyyət insandan- insana dəyişə bilər. Amma, düşünürəm ki, insanlar yaşları artdıqca komplekse düşürlər. Necə ki, uşaqlıqda tez böyümək istəyirdik, böyüdükdə isə tam əksini, yəni yaşımızın azalma-



sını istəyirik. Bəlkə də yaşlandıqca çirkinləşdiyimizi düşünürük, bəlkə keçmiş yaşımızdan faydalana bilmədiyimizi düşündüyümüzdən, özümüzü belə aldadıb daha cavan olduğumuzu düşünərəkdən hərəkət edirik".

**Şəhər sakini Zərdüşt Quluza-**



**də:** "Buna daha çox özgüvən çatışmamazlığının da səbəb olduğunu deyə bilərik. Belə ki, qadınların çoxunda yaş kompleksi olur. Yaşın qadınların evlilik planında çox önəmi olduğuna görə də yaşlarını gizlədirlər. Sırf buna görə də qadınlardan yaşını soruşmaq da qəbahət sayılır. Necə ki, kişidən maaşını soruşmaq olmaz, eyni ilə də qadınlardan yaşını soruşmaq düzgün deyil".

**Şəhər sakini Nərmin Nağıza-**



**də:** "Qadınlar əslində zəif yox,zərif varlıqlardır. Onlara kənardan baxdıqda nə qədər zərif, incə görünsələr də daxildən çox güclü, əzmkar olurlar. Məsələn, bizi boya-başa çatdıran analarımız bizi böyüdənə kimi min cür əzab-əziyyətlərə dözürlər. Hətta yeri gəldikdə kişilərin görə biləcəyi işləri də görürlər. Lakin, heç vaxt incəliklərini, zərifliklərini, qadın ruhlarını satmırlar. Onlar qayğıya ehtiyac duyurlar. İçlərindəki o uşaq qalmaq istəyi onları yaşını gizlətməyə vadar edir. Elə buna görə də bəzi qadınlar yaşlarını gizlədir. Sadəcə, içlərindəki o uşaq ruhunun üzlərinə də yansımasını istəyirlər. Kənardan baxan insanlar həmişə onları cavan, gözəl, baxımlı hesab etsin deyə bunu edirlər. Qadının gözəlliyi o yaşa dolduqca artır".

***Ayşən Vəli***

## MN: "Ermənistanın müdafiə nazirliyi dezinformasiya mənbəyidir"

Etimadını itirmiş Ermənistan müdafiə nazirliyi öz çirkin əməllərindən əl çəkmir və yalan məlumatlar yaymaq məqsədilə müxtəlif üsullara əl atır. Ermənistan mətbuatı təxribatları ört-basdır etmək üçün yerli



əhalinin adından istifadə edərək, guya dövlət sərhədi yaxınlığında törənən partlayış nəticəsində yanğının baş verməsi və bundan sonra Arazdəyən istiqamətində atəş açılması barədə məlumatlar yayır.

Bildirir ki, bu tip məlumatların heç bir əsası yoxdur və dezinformasiyadır. Azərbaycan Ordusunun bölmələri tərəfindən yalnız qarşı tərəfin təxribatlarının qarşısını almaq və onları susdurmaq məqsədi ilə atəş açılır.

## "Yaşımı heç göstərmirəm" - Aktrisa danışdı

Məşhur türk aktrisa İdil Sivritepe özünün bilinməyən yönləri haqqında danışıb. SİA xarici mətbuata istinadən xəbər



verir ki, aktrisa bunları açıq-aydın qeyd edib: "İlk naməlum tərəfim 31 yaşım var. Düşünürəm ki, ən təəccüblü tərəfim budur. Çünki heç kim buna inana bilməz. Təbii ki, xoşbəxtəm, çünki yaşımı heç vaxt göstərmirəm. Düşünürəm ki, digər naməlum xüsusiyyətim də göründüyüm qədər sevimli olmamağımdır. Görünüşüm insanlarda daha sakit və yumşaq bir təəssürat yaradır, əksinə inadkaram və bəzən bir az dəli oluram".

***Ayşən Vəli***

# Qarabağın qurtuluşunda ən böyük amil - milli birlik və vətənpərvərlik

***Qarabağın azad olunmasını düz 30 il gözlədik. Əlbəttə bu zaman, tarix etibarilə kiçik rəqəm deyil. Bəzən Azərbaycan cəmiyyətində də Qarabağın azad edilməsi prosesinin çox uzandığı barədə narahatlıq, üzüntü hiss olunurdu. Amma dövlət quruculuğunda bilavasitə iştirak edənlər, iqtisadi inkişafımızın daha da sürətlənməsini təmin edənlər, hərbi sahədə, ordu quruculuğunda çalışan fədakar insanlar fərqli düşünür, o günün çox da uzaqda olmadığını hər gün, hər saat qətiləşdirirdilər. Azərbaycan AZADLIQ gününə hazırlaşırdı, Qarabağın azadlığına….***

Hərbi texnikanı, müasir silahları, yerdə gəzən, göydə uçan, suda üzən müasir döyüş vasitələrini hər kəs ala bilər. Həmin texnikanı idarə edən də tapılar. Amma düşməni öldürmək, işğal etdiyi torpaqlardan birdəfəlik qovmaq, başını əzmək üçün isə bu texnikalar yetərli deyil. Ona hər kəsdə olmayan, hər millətin, xalqın həsrətində olduğu ruh, ürək və ikisinin cəmi olan vətənpərvərlik lazımdır.

44 günlük müharibədə Azərbaycana qələbə gətirən qəhrəmanların orta yaşını hesablasaq aşağı-yuxarı 30 yaş edər. Bu da 1991-ci ilə düşür. Həmin dövrdə nə vaş verirdi? Ölkədə xaos, hərcmərclik, müharibə, ermənilərin artan işğalı cəmiyyətin bütün təbəqəsindən olan insanlarda ruh düşkünlüyü yaratmışdı, sabaha olan ümidlər puç olmuşdu. Qarabağda müharibə getsə də Bakıda vəziyyət başqa cür idi. Əsas mövzu hakimiyyət, kürsü davası idi. Dövlət strukturlarında baş verən erroziya insanların əhvalına da mənfi təsir etmişdi. Cəbhədən gələn xəyanət xəbərləri də döyüşə atılmaq istəyən vətənpərvər insanlarda çaşqınlıq yaradırdı, addımlarını yayılan xəbərlərə uyğun atmağı lazım bilirdilər. Cəbhədə döyüşən insanlara köməyin, maddi-mənəvi dəstəyin lazım olduğu bir vaxtda belə bir mənzərənin yaranması, əlbəttə çox təhlükəli idi. Və nəhayət, ən çox qorxduğumuz başımıza gəldi. Ölkədəki xaosdan, anarxiyadan istifadə edən Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ və ətrafındakı 7 rayonu işğal etdi.

Bəs döyüşkən, tarixdə ad çıxarmış Azərbaycan xalqına nə olmuşdu ki, bir ovuc erməninin əlində çarəsiz qalmışdı? Bəlkə, paraya çevriləcək sərvəti yox idi, yaxud zavodu, fabriki işləmirdi, silahdan məharətlə istifadə etməyi bacaran oğulları yox idi, ya vətənpərvərlik çatışmırdı? Yox, hər şey var idi. Yalnız xaosu aradan qaldıran, ölkədə nizam-intizam, qayda-qanun yaradan lideri meydanda deyildi. Yerində olmayan, idarəçilikdən bixəbər, yalnız şəxsi və qrup maraqlarını güdən meydan dəllalları ortada at oynadırdı. "Get" deyənləri də müxtəlif damğalar vurub siyasət səhnəsindən çıxarırdılar. Sonda yenə xalq öz sözünü dedi, Vətən sevgisi bütün qorxuları üstələdi.







Diqqətlər bir anlığa Azərbaycanın Naxçıvan kimi kiçik və blokada şəraitində yaşayan bir kəsiyinə dikildi. Orada dünyanın ən böyük siyasətçisi, xalqın ümid çırağı Heydər Əliyev gecə-gündüz çalışır, Naxçıvan əhalisinin sağ qalması üçün mücadilə aparırdı. Üç tərəfdən Ermənistanla əhatə olunmuş Naxçıvanda vəziyyət daha təhlükəli idi. Düşmən bütün sərhəd boyu hücumlar edir, kəndləri, qəsəbələri, rayon mərkəzlərini qrad yağışına tutur, top atəşinə məruz qoyurdu. Və belə bir zamanda Heydər Əliyevə müraciətlər axını başladı. Xalq Dahi Liderin Bakıya gəlməsini və Azərbaycana rəhbərlik etməsini tələb edirdi. Bu istəyinə xalq və o vaxtkı hökumət Dağlıq Qarabağı və ətraf 7 rayonu itirəndən sonra "nail oldu". Ulu Öndərin Bakıya ayaq basdığı gündən hər şey müsbətə doğru inkişaf etməyə başladı. Öncə insanlarda ruh yüksəkliyi, sabaha və özünə inam formalaşdırıldı, Vətəni sevməyin bütün problemlərin açarı olduğu xatırladıldı

Keçən 30 ilin 10 ilində Ümummilli Liderimiz Heydər Əliyev dövlət institutlarını yenidən formalaşdırdı, ordu quruculuğu, iqtisadi inkişaf prioritet olaraq diqqətdə saxlanıldı. Dövlətin möhkəm özüllər üzərində bərqərar olması üçün fenomenal addımlar atıldı. İri qitisadi layihələr Azərbaycanın iqtisadi inkişafının dönməz xarakter almasında önəmli rol oynadı.

2003-cü ildən bəri Azərbaycan dövlətinin idarə sükanı arxasına keçən Prezident İlham Əliyev isə Heydər Əliyevin başa çatdıra bilmədiyi işləri daha ustalıqla və daha kreativ həyata keçirə bildi. Son 17 ildə Azərbaycanın iqtisadi sahədə əldə etdiyi kapitalı insane kapitalına çevirə bildi. Bütün sahələrdə çalışa bilən mütəxəssis ordusu yaradıldı, hərbi mütəxəssislər, vətənpərvər insanlar, ölkəsini, dövlətini, xalqını sevən gənclər yetişdirildi.

Və 17 il ərzində yetişən gənc nəsil Dağlıq Qarabağın azadlığa qovuşması missiyasını yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanlar ötən 17 il ərzində məhz vətənpərvərlik ruhunda tərbiyə aldı, düşmənə nifrət hissi ilə böyüdü. Bu da bizi Böyük Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi.

Bilməyənlər üçün xatırladaq ki, vətənpərvərlik mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürür kimi də hallanır.

Bundan başqa vətənpərvərlik anlayışı müxtəlif mənalarda da işlənir. Vətənpərvərlik həm də inqilabi ideologiya ilə əlaqələndirilib, "millət" anlayışı ilə eyniləşdirilib. Sonralar isə vətənpərvərlik yeni dövlətlərin, milli və milli-azadlıq hərəkətlərinin yaranması zamanı və müharibələr ərəfəsində daha da aktuallaşıb. Tarix boyu millətlərin formalaşmasında, dövlət quruculuğunda vətənpərvərlik mühüm rol oynayıb.

Ulu öndər Heydər Əliyev vətənpərvərliyin tərifini özünəməxsus şəkildə ifadə edib: "Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir".

Biz bunu 44 günlük Vətən müharibəsində də gördük. Bu müharibə əsil vətənpərvərlik meydanına çevrildi. Ölkəmizin sosial-iqtisadi cəhətdən davamlı və dinamik inkişafı, regionda aparıcı dövlətə çevrilməsi, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vətənimizin tərəqqisi, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun durmadan yüksəldilməsi, 30 ilə yaxın müddətdə işğal altında qalan doğma Qarabağın işğaldan azad olunması istiqamətində möhtəşəm fəaliyyətləri hər bir vətəndaşımız, yetişməkdə olan hər bir gəncimiz üçün böyük vətənpərvərlik nümunəsi, vətənpərvərlik məktəbidir.

Bəli, Azərbaycanın vətənpərvərlik ruhunda böyüyən oğul və qızları bu gün də Ermənistanla sərhəddə qəhrəmancasına mübarizə aparırlar. Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu göz bəbəkləri kimi qoruyurlar.

***V.VƏLİYEV***

# Sentyabrda dərslər başlayır?



"Sentyabr ayından bəri dərslər artıq 2020-2021 tədris ili üçün ənənəvi qaydada başlanılmalıdır. Çünki ötən illə müqayisə aparsaq, bu il vəziyyət dərslərin başlanılması baxımından nisbətən daha idealdır. Bildiyimiz kimi, ötən illəri hələ vaksinasiya olmamışdı, 2 milyona yaxın vətəndaşımızdan test analizi götürülmüşdü. İndi isə 4 milyondan çox vətəndaşdan test analizi götürülüb. Onlardan isə cəmi 300 min nəfər qədər adam koronavirusa yoluxub". Bu sözləri SiA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib. Onun sözlərinə görə, nəzərə alsaq ki, peyvəndləmənin birinci mərhələsi üzrə 3, ikinci mərhələ üzrə 2 milyondan çox vətəndaşımız vaksinasiya olunub: "Yəni, ümumilikdə vəziyyəti dəyərləndirsək əlbəttə, dərs ənənəvi qaydada başlamalıdır. Bundan əlavə də təhsil müəssisələrində çalışan təhsil işçilərinin böyük əksəriyyəti artıq vaksinasiya prosesində iştirak ediblər. Yalnız, müvafiq olaraq 18 yaşın üzərində olan tələbələr vaksinasiya prosesində iştirak etməlidirlər. Bununla bağlı universitetlər tərəfindən də müvafiq göstərişlər veriləcək. Şagirdlər və tələbələrin vaksinasiya olunması dərslərin başlaması üçün vacibdir".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Digər bir məqamı da qeyd edim ki, biz distant formalı təhsili o baxımdan saxlaya bilmərik ki, imtahanlarda abituriyentlərin nəticələri ürəkaçan deyil. Yəni, 2019-cu illə müqayisə etsək, 2020 və 2021-ci illər distand formalı təhsilin nəticələri olduqca aşağıdır. Əgər təhsil hələ də distant formada davam etsə, biz gələn il uğurlu nəticələr görməyəcəyik. Ona görə də, gec olmadan artıq distant formalı təhsildən ənənəvi formalı təhsilə keçid etməliyik. Düşünürəm ki, bununla bağlı müvafiq aidiyyatı qurumlar tezliklə qərar verəcəklər".

Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov da öz fikirlərini qeyd edib: "İlk növbədə qeyd edim ki, hal-hazırda istər Azərbaycanda, istərsə də dünyada təhsil sisteminin qarşısında duran ən vacib məqam yeni tədris ilinin başlaması ilə bağlıdır. Belə ki, hal-hazırda artıq Azərbaycanda və dünyada ciddi şəkildə vaksinasiya prosesi həyata keçirilir. Bu da bizim normal həyatımıza qayıtmaq üçün ən vacib və birinci meyar hesab edilir".

"Nəzərə alsaq ki, bu gün Azərbaycanın 447 orta ümumtəhsil məktəbində 1,6 milyon şagird təhsil alır və onlarla 150 min müəllim çalışır. Bu o deməkdir ki, müəllimlərimiz vaksinasiya olunmalıdır və bu gün kifayət sayda müəllim vaksinasiya olunub".

"Digər bir vacib məqam isə may ayının 11-dən etibarən yaşı 18 olan tələbələr də vaksinasiya prosesinə cəlb ediliblər. Bu günə olan məlumata görə, 60 faiz tələbə vaksinasiya olunub. Bu rəqəmlər kifayət qədər ümidvericidir və birmənalı şəkildə bizim sentyabr ayında ənənəvi təhsilə qayıdacağımıza imkan verir".

"Artıq biz pandemiya dövründəki yaşayış və davranış qaydalarına sahibik. Bilirik ki, ara məsafəni gözləməklə, eyni zamanda, digər qaydalara riayət etməklə qorunmaq mümkündür. Bütün bunlar yeni tədris ilinə başlamağa ümid verir. Hesab edirəm ki, sentyabrda ənənəvi dərslərə başlamalıyıq. Əvvəlki hallardan fərqli olaraq, bu dəfə 10-cu və 11-ci sinif şagirdləri də məktəbə getməlidir. Eyni zamanda, ali təhsil müəssisələri də bərpa edilməlidir".

"Digər bir vacib məqam da odur ki, onlayn formada keyfiyyətli təhsil vermək olmur. Burada müəyyən qədər ciddi problemlər var. Şagirdlərin heç də hamısının telefonu, planşeti və ya kompyuteri yoxdur. Müəyyən fənnlərin tədrisində çətinliklər müşahidə olunur".

***Ayşən Vəli***

# İnfrastruktur siyasəti - yüksək mərhələdə

***Prezident Ilham Əliyevin Sərəncamı ilə Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisinə 1,1 milyon manat ayırması bu siyasətin göstəricisidir.***

Prezident İlham Əliyev Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 1,1 milyon (bir milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

Dövlət başçısı son 18 illik prezidentlik fəaliyyəti dövründə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi, yol infrastrukturu da prioritetdir.

### "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil"

Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutub. "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil" - deyən Azərbaycan Prezidenti buna nail olmaq məqsədilə yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilməsinə diqqət ayırır.

Prezident İlham Əliyev bölgələrə, demək olar ki, bütün səfərləri zamanı respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi ilə bağlı konkret tapşırıqlar verir. Bunun nəticəsi olaraq Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Bu gün ölkəmizdə avtomobil yollarında hərəkətin təhlükəsizliyini və vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək məqsədilə kompleks tədbirlər icra olunur. Bu baxımdan, yerüstü və yeraltı piyada keçidlərinin tikintisi işləri xüsusi əhəmiyyəti ilə seçilir.

### Dövlət başçısının imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir

Müasir nəqliyyat-yol infrastrukturunun yaradılmasını qarşıya əsas hədəf kimi qoyan Prezident İlham Əliyev avtomobil yollarının, yol qurğularının açılış mərasimlərində şəxsən iştirak edir, habelə işlərin gedişi ilə tanış olaraq öz dəyərli tapşırıq və tövsiyələrini verir. Ölkə başçısının tapşırığı ilə son 18 ildə yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində həyata keçirilən layihələr öz bəhrəsini verir. Regionlarda nəzərdə tutulan bütün infrastruktur layihələrin icra edilməsi, insanların həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən kənd təsərrüfatının inkişafına gətirib çıxaran kənd və qəsəbələrarası avtomobil yollarının tikintisi istiqamətdə genişmiqyaslı işlər aparılır. Kəndlərarası və qəsəbələrarası avtomobil yolu layihəsi, habelə digər respublika əhəmiyyətli və magistral avtomobil yollarının layihələrinin icrası həyata keçirilir.



Görülən işlərin davamı olaraq Prezident İlham Əliyevin Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (6 km)-Padar avtomobil yolunun tikintisinə 1,1 milyon manat ayırılması ilə bağlı imzaladığı Sərəncam da bir daha dövlət başçımızın bölgələrin sosial-iqtisadi inkişafına qayğısının təzahürüdür.

Azərbaycanda Prezident İlham Əliyevin müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarında bütün ölkə üzrə müasir infrastrukturun yaradılması əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Son illərdə inşa edilən müasir yollar həm bölgələrin simasını dəyişib, həm də regionların investisiya cəlbediciliyini yüksəldib. Dövlət əsaslı vəsait qoyuluşu hesabına yaradılan yollardan istifadə edən investorlar iqtisadiyyatın müxtəlif sahələrinə məmnuniyyətlə sərmayələr yönəldirlər. Müasir yolların sosial önəmi də kifayət qədər böyükdür. Bu, insanların rahatlığı, yetişdirdikləri məhsulları bazarlara tez çatdırmaları, bir sözlə, vətəndaş məmnunluğunun təmin olunması deməkdir.

### İşğaldan azad edilmiş ərazilərdə yaradılan yol infrastrukturu Azərbaycanı yeni nəqliyyat qovşağına çevirir

Bu gün dövlətin qarşısında duran ən əsas vəzifələrdən biri də işğaldan azad olunan torpaqlarda bərpa və quruculuq işlərinin aparılmasıdır. Azərbaycan Prezidentinin dediyi kimi, bu işlər planlı şəkildə həyata keçirilir. İlk növbədə, işğaldan azad olunmuş bölgələrdə yol infrastrukturunun bərpası və yeni yolların çəkilməsi. Belə ki, Füzuli rayonunda bu yaxınlarda ölkə başçısı tərəfindən təməli qoyulan yeni aeroportun tikintisi sürətlə gedir. Paralel olaraq Şuşa şəhərinə iki avtomobil yolu salınır, hansı ki, birinin adını cənab Prezident "Qələbə yolu" adlandırmışdır. Nisbətən aran ərazidən keçən digər yol da aeroportdan birbaşa gediş-gəlişi təmin edəcək ki, bu da xaricdə yaşayan azərbaycanlılar, həmçinin, digər ölkələrin vətəndaşları Qarabağa rahat gəlmək imkanına malik olacaqlar. Ərazilərin bərpa olunması üçün ilkin olaraq dövlət tərəfindən 2,2 milyard manat investisiya ayrılmışdır. Qarabağın bərpası barədə təklif edilmiş investisiya proqramından bu il həyata keçiriləcək layihələrdən təxminən bir milyard manatı praktik olaraq paylanıb. Layihələr infrastruktur layihələridir, onlara vəsait ayrılır. Bu, elektrik enerjisi, yollar, dəmir yolları, minalardan təmizləmə və sairə sahələrdir. Bütün bunlar əlbəttə, tez bir zamanda Qarabağın yenidən Azərbaycanımızın dilbər guşəsinə çevrilməsini və insanlarımızın şad, firavan yaşamasını təmin edəcəkdir.

Beləliklə, işğaldan azad edilmiş bölgələrimizdə ilk olaraq yol-nəqliyyat infrastukturunun yenidən qurulmasına, təkmilləşdirilməsinə xüsusu diqqət göstərilməsi bu ərazilərin malik olduğu potensial imkanlardan səmərəli istifadəni təmin edəcək ki, bu da öz növbəsində ölkəmizin dayanıqlı inkişafına böyük dəstəkdir.

Bir sözlə, ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu islahatları, vaxtında qəbul etdiyi qərarları, qətiyyətli mövqeyi onu deməyə əsas verir ki, heç bir qüvvə ölkəmizin nüfuzunu sarsıda bilməz. Çünki dövlərimiz Ulu öndər ideologiyası və Onun qoyduğu siyasi xətt üzrə uğurla idarə olunmaqda və inkişaf etməkdədir. Dövlət başçımızın dediyi kimi: "Çünki yol rahatlıqdır, inkişafdır. Yol olan yerdə inkişaf da var. Yol həm sosialyönümlü layihədir, həm də iqtisadi layihədir. Ona görə də yol layihələri bundan sonra da uğurla icra ediləcək".

***RƏFİQƏ***

# İdeologiya müharibəmiz



ANALİZ

**Azərbaycanın zəfərinə, haqq işinə şərik qoşan və ona kölgə düşürməyə çalışanlar kifayət qədərdir. Acınacaqlısı burasındadır ki, həmin qüvvələr həm də öz daxilimizdə yerləşib. Onların məqsədi əhalidə ruh düşkünlüyü yaratmaqdır. Xüsusilə də həssas dönəmlərdə kifayət qədər aktiv olan bu adamlar heç bir dəstək görmədilər. Belə ki, bu fitnəkarlar hətta 10 noyabr sazişini də xalqa yanlış təqdim edərək təbliğatlar edirdilər.**

Bütün bunlara baxmayaraq xalqımız bu fitnəkarların məqsədinə çatmasına izin vermədi. Ali Baş Komandanın verdiyi qərarlara inamla yanaşdı. Beləliklə xaricdən hər cür imkanla təmin olunan və maliyyələşdirilən bu qüvvələr öz məqsədlərinə çata bilmədilər. Özlərini xalqın halına yanan ağıllı adamlar kimi göstərən bu satqınlar əksərən müəyyən izləyici kütləsinə də malik olurlar. Vaxtaşırı bəyanatlar verərək dövlətimizin verdiyi hər bir qərara şərk qoşurlar. Bu xainləri qətiyyən müxalifətçi adlandırmaq olmaz.

Belə ki, onların məqsədi bunlardır

**1)** Xalq olaraq bizi aşağılanmış hiss etdirmək

**2)** Xalqı zombiləşdirib bütün potensialını mənimsəmək, öz məqsədi naminə istifadə etmək

**3)** Azərbaycan dövlətini təhdid etmək üçün zəmin yaratmaq

**4)** Xalqın beynindən dövlətçilik zehniyyətini silmək

**5)** Müasirlik adı altında saxta təbliğat qurub nümunəvi ailə modelini dağıtmaq

**6)** Gənc nəslin iradəsini sındırıb öz çirkin məqsədlərinə nail olmaq

**7)** Hər nə olursa-olsun Azərbaycanın olan heç nəyi bəyənməmək və onu ucuzlaşdıraraq gözdən salmaq

Bunları nəzərə alaraq demək olar ki, müxalifətin mübarizəsi hakimiyyətlədirsə bu xainlərin də mübarizəsi bizim millət dəyərlərimizi yox etməkdən ibarətdir. Elə bir təbəqə formalaşıb ki, eynən bu cür davranır. Qısaca belə deyək, sosial mediada hərb və şəhidlər barədə paylaşım görən kimi altına "Bütün kişilər müharibədə öldü, yenə nəsə olsa kim vuruşacaq?" yazırlar. Hansı ki, müharibədən əvvəl də deyirdilər ki, "Azərbaycanda kişi yoxdu Qarabağı alsın". Hətta deyirdilər ki, yeni nəsil ancaq kompyuter oynamağı bacarır. Bu tip adamlar insanları ruhdan salmaqdan ötrü məvacib belə alırlar.

Onların təbliğatına gedənlər isə kifayət qədər dünyagörüşünə sahib deyillər. Əsas olan məqam burasındadır ki, istənilən təbliğat sadəcə boşluğu doldurduqda öz nəticəsini göstərir. Deməli ideoloji cəhətdən yüklü olan kütlə təbliğata getməz. Amma hazırda xalqı lazımi düşüncə qəlbinə gətirmək üçün çox az səy göstərilir.

Daha qədimə baxsaq görərik ki, ikinci dünya müharibəsindən sonra ölkədə belə bir zehniyyət yaratdılar. "Əsl kişilər qaldı 41-45 də". Özü də bunu bığı burma, 1.80 boyu olan, enli kürək kişilər deyirdilər. Amma 20 Yanvar hadisəsi və Birinci Qarabağ müharibəsi sübut etdi ki, kişilər var, ölkəni, vətəni sevirlər, döyüşürlər, böyük mübarizə əzmləri var.

Sonra başqa mənasız cümlə yarandı. "Kişilər 92-93-də müharibədə getdilər, mərd oğullar getdi, daha kim qoruyacaq Vətəni". 2020-ci ildə isə İkinci Qarabağ müharibəsi və zəfərində mərd oğullar döyüşdülər və qazandılar. Əminlikdə demək olar ki, mərd oğulların mərd nəsilləri olur. İndi yenə də hansısa mənasız qüvvə belə fikir formalaşdırır ki, qazilərimiz narazıdır, şəhid ailələri narazıdır, daha heç kim döyüşməz, xalqın iradəsi sındı, bütün igidlər qırıldı və s.

Qorxulusu budur ki, bu cür düşünən adamların sayı artmaqdadır. Çünki buna görə xaricdən pul alanlar öz işini çox yaxşı görürlər. Bütün bunlara rəğmən bizim də borcumuzdur ki, sağlam və fundamental siyasi savada malik gənclik yetişdirək. Digər hallarda ideologiya müharibəmizdə çətin vəziyyətə düşə bilərik.

***Zərdüşt Quluzadə***



# Meşələrin məhvi təbiətə qarşı terrordur

**İnsan təbiətin bir parçası, bir hissəsi və onun ən ali üzvüdür. Bioenergetik varlıq olan insan təbiətlə birgə təmasdadır, yaşayır və inkişaf edir. Deməк, təbiətsiz canlı varlıqlar, insan məhv olar.**

Təbiətə gözəllik, yaraşıq verən, onu zənginləəşdirən isə meşələridir. Bu da bizim sağlamlığımız üçün çox vacib şərtlərdən biridir. Biz yaşıllığı nə qədər çox artırsaq hava o qədər təmiz olar, meşələrin qırılması təbiətin məhvi deməkdir. Meşələrin qırılması oksigenin azalmasına, ekologiyanın pozulmasına gətirib çıxarır ki, bu da təbiətin məhvi deməkdir. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də, siz hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız...”.

### ”HƏRƏYƏ BİR AĞACƏKƏK!”

Ölkəmizdə təbiətə, meşələrə münasibət dövlətimiz tərəfindən hər zaman diqqətdə olub. Ekolji tarazlığı qorumaq baxımından diqqətdə saxlanılır. Azərbaycan Respublikası Prezidentinin 22 may 2003-cü il tarixli Sərəncamı ilə meşələrin bərpa olunmasına və artırılmasına dair Milli Proqram təsdiq olunmuşdur. Bu proqrama əsasən, ildə orta hesabla 10 min hektar sahədə yeni meşələr salınıb və meşə bərpa tədbirləri həyata keçirilib. Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2010-cu il ”Ekologiya ili” elan edildi. Bütün bunlarla yanaşı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ”Hərəyə bir ağac əkək!” çağırışı nəticəsində respublikamızın hər yerində yaşıllaşdırma sahəsində çox böyük işlər görülmüşdür və bu ənənə halını alıb. Təbii ki, bu addım da meşələrin artırılmasında böyük rol oynayır.






Təbii ki, təbiətə qayğı hər kəsdə olmalıdır. Azərbaycan öz füsunkar gözəlliyi, zəngin təbii sərvətləri, əlvan florası və faunası ilə bütün dünyada şöhrət qazanıb. Respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14%-ni təşkil edir. Meşə ilə örtülü sahələr isə 1021min hektardır ki, bu da respublika ərazisinin 11,8 %-ni əhatə edir. Demək, Azərbaycanın meşə fondu kifayət qədər ərazini əhatə edir. Ekoloji mühitin əsas tərkib hissələrindən hesab olunan meşələr qlobal ekoloji problemlərdən hesab olunan iqlim dəyişmələrinin, səhralaşma proseslərinin genişlənməsinin, bioloji müxtəlifliyinin azalmasının, atmosferdə qaz balansının pozulmasının qarşısının alınmasında böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, Azərbaycanın sosial-iqtisadi, mədəni, müdafiə sahəsindəki inkişafında da əhəmiyyətli rola malikdir.

### ”54 MİN HEKTAR MEŞƏ FONDU MƏHV EDİLİB, QIRILIB VƏ BU, ERMƏNİ CİNAYƏTİNİN NÖVBƏTİ NÜMUNƏSİDİR”

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyanlar vurulub. Belə ki, 30 ilə yaxın bir zamanda işğalda olan Kəlbəcər, Laçın, Zəngilan kimi ərazilərdə meşələr vəhşicəsinə qırılaraq talan edilmişdir. Orada bitən çox qiymətli palıd, fısdıq, vələs, ağcaqayın, ayı fındığı, qoz, şərq çinarı kəsilərək Ermənistana daşınmışdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: ”İndi azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni, 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir”. Dövlət başçısı azad edilmiş torpaqlarda, eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqların da olduğunu bildirib: ”Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb”.

Əlbəttə ki, ermənilərin Azərbaycanın flora və faunasına vurduğu ziyan canlı təbiətə böyük bir zərbədir və bu, vəhşilikdir. Bir ağacı becərmək, ərsəyə gətirmək onilliklərin hesabına mümkün olduğu halda, bir neçə saat ərzində canlı təbiətə təcavüz edən ermənilər onu məhv edirlər. 1969-cu ildə yaradılan Qubadlı Dövlət Təbiət Yasaqlığının 1988-ci ildə sahəsi 8500 hektar olduğu halda, 2020-ci ildə bu 6923 hektar olub. 1577 hektarı erməni təcavüzkarları dağıdaraq, bunu talan ediblər. Laçın Dövlət Təbiət Yasaqlığı. Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı erməni təcavüzünə məruz qalıb. Kəlbəcər ərazisində adı ”Qırmızı Kitab”a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələr var. Adı ”Qırmızı Kitab”a salınmış Kəlbəcər rayonunda yerləşən ayı fındığı növündən ibarət 968 hektar meşə qırılaraq mebel istehsalı üçün Ermənistana göndərilmişdi. Erməni separatçı qüvvələri tərəfindən ekoloji tarazlığın pozulmasını əks etdirən reallıqlardan biri hələ sovetlər birliyində yaşadığımız illərdə Ermənistan tərəfindən Qarabağın Topxana meşəsində qiymətli ağacları vəhşicəsinə qırılması faktıdır.

Erməni təcavüzkarları işğal illərində Azərbaycanın meşə örtüyünün sistemli şəkildə məhv edilməsindən ”doymayan” ermənilər 44 günlük müharibə zamanı Qarabağın ekologiyasına bir daha zərbə vurdular. Ermənilərin fosfor bombalarından istifadə etməsi nəticəsində baş verən yanğınlar meşə massivlərinin geniş ərazisini əhatə etdi. Hərbi əməliyyatların dayandırılması haqqında saziş bağlandıqdan sonra isə ermənilər möhlət hüququndan istifadə edərək Kəlbəcərdə tələm-tələsik meşələri qırmağa və evləri yandırmağa başladılar.Bütün bunlara baxmayaraq, Azərbaycana məxsus olan və təbiətin sağlamlığına təsirini göstərən qoruq və yasaqlıqlar bu gün yenidən bərpa olunacaq.

Qeyd etdiyimiz kimi, biz təbiətin bir parçasıyıq. Onu qorumaqda hər kəs məsuliyyətlidir. Ölkəmizi, dünyamızı yaşıllıqlara qərq etməliyik. Əbəs deyil ki, müasir dünyamızı narahat edən məsələlər sırasında zəngin və fərqli ətraf mühitin, planetimizin qorunması diqqətdədir. Beynəlxalq ictimaiyyət, siyasi və elmi dairələr ətraf mühitlə bağlı problemlərin həllində maraqlıdırlar. Dünyada yaşayan insanlar ekoloji problemlərə xüsusi önəm verərək planetimizə görə məsuliyyət daşıyırlar. Bioloji müxtəlifliyin, həyatımızı sağlam, maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub saxlanmasına hər kəs, bütün dünya ictimaiyyəti töhfələrini verməlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Müxalif mövqedə duran qüvvəni Azərbaycan xalqı dəstəkləməz”

## *Media eksperti münasibət bildirdi*

“Azərbaycan Ermənistan arasındakı müharibə Ermənistanın məğlubiyyəti və kapitulyasiya aktına imza atması ilə başa çatıb. Amma buna baxmayaraq, hələlik, iki ölkə arasında sülh müqaviləsi yoxdur və sərhədlərin delimitasiya və demarkasiyası başa çatmayıb”. Bunu SiA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti Müşfiq Ələsgərli bildirib.

Onun sözlərinə görə, Ermənistanda bəzi revanşist qüvvələr bundan istifadə edərək Azərbaycanın 44 günlük müharibədə qazandığı uğurları geri oxutmaq üçün cəhdlər göstərir, revanşist hərəkətlər edirlər: ”Bu baxımdan, onlar bir sıra xarici havadarlarından da dəstək alırlar. Xüsusi olaraq, Fransadan və digər aparıcı ölkələrdə yaşayan erməni lobbisi və şəbəkəsi bu məsələdə ermənilərə dəstək verir və Ermənistanda təxribatçı qruplar Azərbaycana qarşı qisasçılıq hərəkətləri həyata keçirirlər. Bu baxımdan, sərhəddə baş verən atəşkəsin pozulması halları və digərlərini buna misal göstərmək olar. Təəssüf doğuran haldır ki, ermənilərin bu hərəkətləri ilə Azərbaycanın bəzi destruktiv qüvvələrinin hərəkətləri üst-üstə düşür. Uzun müddət müxalif düşərgəsində olan və Azərbaycanda hakimiyyətə gəlmək ehtirası ilə alışıb yanan, lakin heç vaxt məqsədinə çatmayan qüvvələr də indiki məqamlarda ermənilərlə həmrəylik göstərərək bu məsələdə nailiyyət qazanmaq istəyirlər. Onlar nə yolla olursa-olsun Azərbaycan hakimiyyətini, dövlətini gözdən salmağa çalışırlar. Bu məsələdə ermənilər işlədikləri tezisləri təkrar etməkdən çəkinmirlər. Diqqət yetirsək görərik ki, düşmən mediasında, düşmən ölkənin mətbuatında səslənən fikirlər çox qısa fasilədən bir neçə saat sonra bizim radikal müxalifət düşərgəsində təmsil olan insanların dilindən də səslənir. Bu, o deməkdir ki, bunlar vahid mərkəzlərdən idarə olunurlar, tezis alırlar və Azərbaycan dövlətinə qarşı mübarizə aparırlar”.



M.Ələsgərli bildirdi ki, onlar anlamalıdırlar ki, iqtidarlar gəldi-gedərdi Azərbaycan dövləti isə qalıcıdır: ”Yəni hakimiyyətə qarşı kinini, kin-küdurətini büruzə vermək üçün Azərbaycan dövlətinə qarşı mübarizə aparmaq olmaz. İndiki halda isə Azərbaycan iqtidarı Azərbaycan dövlətinin təmsilçisidir, həm də çox layiqli təmsilçisidir. 44 günlük müharibədə zəfər çalmış Azərbaycan ərazi bütövlüyünü suverenliyini təmin etmiş bir hakimiyyətdir. Bu cür hakimiyyətə, dövlətə qarşı çıxan müxalif mövqedə duran qüvvəni isə Azərbaycan xalqı heç vaxt dəstəkləməz. Onlar bunu nəzərə almalıdırlar və öz hərəkətlərində korrektə etməlidirlər. Əgər bu cür davam edərsə Azərbaycan xalqı mənfur ermənilər kimi bir gün onlarla eyni mövqedən çıxış edən müxalifət dəstələrini də sürüyüb bu ölkədən bir kənara ata bilər”.

***Gülyana***

# Əli Kərimli artıq Azərbaycanın keçmişidir

***Qüdrət Həsənquliyev: "Əvvəl dedi parlamentə getmirəm və bu barədə xalqın gözü qarşısında sənəd imzaladı, sonra görəndə ki, çevriliş ehtimalı yoxdur, qaçıb oturdu parlamentdə"***



AXCP sədri Əli Kərimlinin yenidən qarşılaşdığı istefalar dalğasına görə partiyasını tərk edənləri ittiham edir, onları "xəyanətkar" adlandırır, sosial şəbəkələrdəki trolları vasitəsi ilə təhqir obyektlərinə çevirir. Maraqlıdır ki, bu şəxs hazırkı dövrə qədər uğradığı bütün uğursuzluqlarına görə yalnız kənarları ətrafları suçlayıb və bir dəfə də olsun özündə günah axtarmayıb, ya da bu etirafları etməyib. Məhz bu səbəbdən onun ayağısürüşkən, süni pafosçu və hay-küyçü olması barədə dəfələrlə danışılıb, yazılıb. Lakin bu kimi haqlı iradlardan da nəticə çıxarmağı bacarmayan Əli Kərimli iqtidara qarşı aqressiyasını daha da artırmaqla daxilindəki hərc-mərclik maraqlarını daha qabarıq fonda sərgiləyib. O da əbəs deyil ki, illər əvvəl onunla eyni cinahda yer alan siyasətçilər artıq kənardadırlar və çoxları özlərinə siyasi təşkilat təsis edərək, onlara rəhbərlik edirlər. Həmin şəxslərdən biri də Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, deputat Qüdrət Həsənquliyevdir. O, Əli Kərimlinin mövcud vəziyyətini şizofreniya ilə əlaqələndirib və digər münasibətlərini şərh edib.

"O, ABŞ səfirinin tapşırığı ilə elan olunmuş mitinqi təxirə saldı və hamı əmin oldu ki, Əli Kərimli kənardan idarə olunur"

"Şizofreniyanın birinci əlaməti özünütənqid hissinin itməsidir. Elçibəyin dünyasını dəyişməsi ərəfəsində AXCP-nin İdarə Heyətinin 19 üzvündən biri belə onun yanında qalmadı. Hər kəs kiçik bir araşdırma aparıb buna əmin ola bilər". S?A xəbər verir ki, Qüdrət Həsənquliyev AXCP sədri Əli Kərimlinin onun yanını tərk edənləri, istefaya gedənləri "xəyanətkar" adlandırmasına münasibətini açıqlayarkən deyib.

Müxalifətçi deputatın sözlərinə görə, hələ 2001-ci ilin aprelində Qarabağa dair Ki Uest (Key West) şəhərində, Florida ştatında, ABŞ-da aparılan danışıqlar zamanı o ABŞ səfirinin tapşırığı ilə elan olunmuş mitinqi təxirə saldı və hamı əmin oldu ki, Əli Kərimli kənardan idarə olunur: "İkincisi, zamanla hamı əmin oldu ki, dil-dil ötən bu adamın güclü siyasətçilərə xas olan dərin strateji düşüncəsi yoxdur və realllıq hissini itirib. 2000-ci ilin parlament seçkiləri bunun bariz nümunəsi oldu. Əvvəl dedi parlamentə getmirəm və bu barədə xalqın gözü qarşısında sənəd imzaladı, sonra görəndə ki, çevriliş ehtimalı yoxdur, qaçıb oturdu parlamentdə. O, ən etibarlı adamı, daima Rusiya və İran əleyhinə yazılar yazan Qənimət Zahidi İran və Rusiyaya göndərəndə isə bəlli oldu bu adamın heç bir aydın siyasi xətti yoxdur, hakimiyyətə gəlmək üçün hər kəslə əməkdaşlığa və ölkənin maraqlarını hər an satmağa hazırdır".

"Zamanında onu yersiz radikallıqdan çəkindirmək üçün deyirdim ki, cəmiyyətimizdəki bütün problemləri iqtidara bağlamaq düzgün deyil"

BAXCP sədri vaxtilə Əli Kərimliyə tövsiyələr verdiyini, lakin onun həmin tövsiyələri rədd etdiyini, radikalçılıq, dağıdıcılıq prinsiplərindən kənara çıxmayacağı barədə fikirlərini də xatırladıb. "Zamanında onu yersiz radikallıqdan çəkindirmək üçün deyirdim ki, cəmiyyətimizdəki bütün problemləri iqtidara bağlamaq düzgün deyil, böyük dəyişikliklərə xalq hazır olmalıdır. Azsaylı tərəfdarlarımızı iqtidarla qarşıdurmaya çəkib məhrumiyyətlərlə üz-üzə qoymaq qəhrəmanlıq deyil", Qüdrət Həsənquliyev bildirib və radikallığın heç vaxt siyasi cəhətdən səmərə verməyəcəyi qənaətində olduğunu, əksinə, hakimiyyətlə işbirliyi qurmaqla uğur qazana biləcəyini deyib: "Radikallıqdan imtina edib, iqtidarla əməkdaşlıq yolu ilə cəmiyyətin inkişafına töhfə vermək lazımdır. İndi, iyirmi ildən sonra deyir ki, dəyişikliklər xalqdan asılıdır. İqtidarın imtina etdiyi, imkanları ilə iddiası üst-üstə düşməyən bu dayaz təfəkkürlü və sürüşkən siyasi mövqeli adam hazırda ondan imtina edənləri aşağılayır, özündən qəhrəman düzəltmək istəyir".

BAXCP sədri AXCP sədrinin gəncləri öz toruna salaraq həyatlarını zəhərlədiyini də xatırladaraq, həmin gənclərə səslənib və doğru yola tərəf istiqamət almalarına səsləyib: "Gənc nəsil sonradan böyük məyusluq yaşamamaq, ölkəmizə problemlər yaratmamaq üçün populist çıxışların ardınca getməməli, həmin çıxışların müəlliflərinin kimliyini xalq hərəkatının tarixini və müstəqillik tariximizi həm yazılanlardan, həm canlı şahidlərlə söhbət etməklə diqqətlə öyrənməli, sonra seçim edib, qərar verməlidir. Əli Kərimli artıq Azərbaycanın keçmişidir".

***Rövşən RƏSULOV***

# "Ermənistanı təcili olaraq gücləndirməliyik..."



"Ermənistan təcavüzkar ritorika və hərəkətlərindən əl çəkməli, uzun müddət ərzində Cənubi Qafqazda ilk dəfə ortaya çıxan sülh və sabitliyin bərqərar olması üçün verilən fürsəti dəyərləndirməlidir. Ermənistan rəhbərliyini bölgə ölkələri arasındakı razılaşmalara riayət etməyə və əməkdaşlığı inkişaf etdirməyə çağırırıq".

Deməli, Türkiyə Təhlükəsizlik Şurasının bu mesajını ermənilər özləri üçün "təhdid" kimi qəbul edirlər.

Məsələn, özünü türkoloq kimi təqdim edən Varujan Qehamyan adlı birisi Türkiyədən gələn bu cür ritorikaların ermənilərə qarşı təzyiq kimi təqdim edərək, bu təzyiqlərin arxasında, əksər ermənilərin açılacağına şübhə etmədikləri dəhliz məsələsinin dayandığını bildirir.

Bu gün Ermənistan dövlətinin zəif olduğunu, ilk növbədə, milli hökumətin olmamasını diqqətə çatdıran erməni türkoloq ölkəsinin güclənməyənə qədər "belə təzyiqlərə" məruz qalacağını istisna etmir.

Onun dediyindən belə başa düşülür ki, Ermənistan güclənməlidir. Amma necə, təbii ki, Qehamyan bunu hələ ki, cavablandıra bilmir.

..."Paşinyan mənim baş nazirim deyil, mən 5 il də yaşayıb onu oturduğu kürsüdən rədd edəcəyəm". Bunu isə "5165 hərəkatı"nın lideri Karin Tonoyan Ermənistanda yeni formalaşdırılan parlament barədə danışarkən deyib.

Belə görünür ki, Tonoyan da narazıdır. Kimdən, təbii ki, bu gün Ermənistanda "milli hökumət kimi, milli parlamentin" də olmamasından. Sən demə, Tonoyana görə, erməni deputatların əksəriyyəti saxta deputatlardır.

"...Bizi yaxınlarda başqa bir dəhşətli müharibə gözləyir"-deyən, Tonoyan, bu gün Ermənistanda ordunun artıq dağılmaya doğru getdiyini, hökumətin isə yeni güzəştlərə getmək üçün insanları yeni müharibə ilə qorxutduğunu bildirir.

... türkoloq Varujan Qehamyan da deyir ki, təcili güclənməliyik.

Budur, "Vətəndaş Müqaviləsi" parlament fraksiyasının deputatı Vaqe Qalumyan deyir ki, bu yaxınlarda Nikol Paşinyan Rusiya sərhədçilərinin və ya KTMT qoşunlarının Ermənistan-Azərbaycan sərhədi boyunca yerləşdirilməsini təklifini edib. Qalumyan Ermənistanın bu təklifi etməkdə əsasları olduğunu da gizlətməyib: KTMT ilə razılaşmamız var ki, sərhəd problemi yaranarsa müdaxilə etməlidirlər. Amma Nikol tərəfdarı olan deputat Qazaxıstanın, Qırğızıstanın, Belarusun lap elə Rusiyanın Azərbaycanla münasibətlərini nəzərə alaraq Ermənistana qoşun yeridilməsini dəstəkləyib -dəstəkləməyəcəklərinə inanırsınızmı sualına, o qaşlarını çataraq, yuxarı-aşağı baxandan sonra "bilmirəm" cavabını verib.

...İnanın ki, ermənilərin qəribə məxluq olduqları barədə o gün dediyim sözlərin üstündə, elə bu gün də dayanıram.

Deməli, erməni parlamentinin son toplantısında söz alıb kürsüyə çıxan "şərəfim var" fraksiyasından olan deputat Anna Mkrtçyan çıxış edib artsax üzrə daimi bir parlament komissiyası yaratmağın vacibliyini bildirib. Bununla dayanmayan, erməni deputat bundan sonra Nikolu ölkə parlamentinə çağırmamağı da həmkarlarına təklif edib.

...Bax, "erməni demokratiyası" deyirdiniz, bu da sizlərə həmin "demokratiyanın" bariz nümunəsi, amma neyləyəsən ki, daha sonra Annaya danışmaq yasaq edilib, yəni onun mikrafonu söndürülüb.

Əslində, düz də edilib. Çünki hazırda "ölüdən can diləyən" bir ölkənin, yəni Ermənistanın başqa bir ölkə ərazisində "parlament komissiyası" yaratmağa səlahiyyəti çatırmı? Özü də...daimi.

... Yenə də şeytana lənət ...türkoloq Varujan Qehamyan da deyir ki, təcili olaraq Ermənistanı gücləndirməliyik.

***Ağasəf Babayev***



# Bir dəli quyuya daş atanda - İnformasiya təhlükəsizliyimiz təhlükədədir

**Elçin Bayramlı**

İnformasiya müharibəsi getdikcə daha fərqli müstəvilərə keçir. Son vaxtlar baş verənlər göstərdi ki, nəinki peşəkar agent, adi bir küçə uşağı da saxta bir informasiya ilə savadsız kütlənin başına nə oyun desən aça bilər, onun fikrini, münasibətini hara istəsən yönəldə bilər. Küçə dezinformasiyalarına reaksiyalar göstərir ki, nəinki kütləni, özlərini ziyalı, jurnalist, ictimai xadim sayanların çoxunu da asanlıqla avam yerinə qoyub aldatmaq mümkündür- necə ki, çox uzun müddətdir belə edirlər.

Demək, artıq cəmiyyət və informasiya məkanı olaraq onlayn bazar qeybətləri erasına keçmişik, "deyirlər filandır", "eşitdiyimə görə filan şey olub", "feysbukda yazmışdılar ki ", "vatsapda yayılıb" söhbətləri ilə istənilən məlumatı sürətlə hamıya yaymaq və azı 80-90 faiz insanı buna inandırmaq mümkündür.

Bu dezinformasiya sisteminin çox fərqli istiqamətləri və fərqli üsulları var. Məsələn, neçə illərdir sosial şəbəkələrdə bir saxtakarlıq metodu tətbiq olunur- bir nüfuzlu liderin və ya ictimai şəxsin, ya da xarici dövlət başçısının şəkli qoyulur, altında istənilən fikir yazılır, şərhlərdə yüzlərlə, minlərlə səy və başdanxarab kütlə nümayəndəsi başlayır onu söyməyə. Heç kim tələb etmir ki, ay gədə, ya da ay sürtük, zəhmət olmasa bu adamın bu sözü dediyi video materialı bura qoy görək.

İstənilən nüfuzlu şəxsi, təşkilatı, şirkəti ləkələmək üçün onun rəqibləri və ya düşmənləri sosial şəbəkələrdə və ya hansısa saytda bir saxta kompratamat material yayımladır, bundan sonra həmin məlumat bütün şəbəkələrdə yayılır, sonradan bunun yalan olduğu ortaya çıxsa belə, artıq cəmiyyətdə lazımi rəy yaradılıb və yalanlama məlumatı onların çox azına çatır. Üstəlikn ilkin mənbəni də əksər hallarda bilmək tapmaq olmur. Çünki ilk mənbələr saxta sosial şəbəkə hesabları və ya xaricdəki saytlar olur.

Daha bir metod da milli və dövlət mənafeləri əleyhinə yayılan dezinformalarla bağlıdır. Bu işlə əsasən xarici agentura şəbəkələrinin nüfuz agentləri peşəkar şəkildə məşğul olur. Hətta bu yollarla etnik, dini, sosial, siyasi motivli qarşıdurmalar da təşkil etmək mümkündür, necə ki bəzi ölkələrdə bunu dəfələrlə effektli şəkildə təcrübədən keçiriblər.

Bu sistemdən daha çox, qərb dövlətlərinin texnoloqları geniş istifadə edir və öz düşmənləri olan ölkələr və qüvvələr haqda mənfi rəy yaratmaq üçün uğurla tətbiq edirlər. Digər ölkələr də bu metodlardan bəhrələnir.

Bunların tələsinə milyonlarla savadsız adam düşür və beləliklə su qiymətinə ictimai rəy formalaşdıra bilirlər. Bəziləri isə sadəcə savadsız gənclərdir- hardasa belə bir dezoya rast gəlib və bu da başlayıb davam etdirməyə. Beləlıəri özləri də bilmədən hansısa xarici dairəyə işlədiklərini və ondan alət kimi istifadə edildiyini belə anlamır.

İnformasiyanın ən qiymətli və ən vacib şey olduğunu informasiya əsrində daha aydın görmək olur. Xüsusən də gəncləri və savadsız şəxsləri aldatmaq daha asandır. Onlar bir neçə saxta informasiya ilə rahatca tələyə düşürlər və özləri də bilmədən xarici qüvvələrin informasiya ordusunda müftə xidmət edirlər.

Yalnız savadlı, təcrübəli, ağıllı, məntiqli adamları aldatmaq mümkün deyil. Onlar belə saxta dezoları görəndə- "zəhmət olmasa mənbə göstərin", "rəsmi sənəd göstərin", "yazdığınızı sübut edin" deyə tələb edir və yalanı ifşa edirlər. Təəssüf ki, beləıəri çox azdır. Hamı belə etmədikcə, bu kütlənin başına nə oyun desən açmaq olacaq.

Belələrini sıradan çıxarmaq üçün çox sadə yolu var- onları kütləvi şəkildə blok etmək. Lakin kütlə bunu edəcək deyil. Çünki hansı informasiyanın hansı qüvvələr tərəfindən nə məqsədlə ortaya atıldığını dərk edə bilmir. Dərk edənlər isə nəsə etmirlər. Bu isə ölkəmizin və cəmiyyətimizin informasiya təhlükəsizliyinin çox zəif səviyyədə olduğunun göstəricisidir.

Beləliklə, bu sahədə vəziyyətin təhlükəli olduğu göz qabağındadır. Ona görə də, dövlət informasiya təhlükəsizliyini təmin etməlidir. Təklif edirəm ki, fövqəladə səlahiyyətlərlə İnformasiya Təhlükəsizliyi İdarəsi yaradılsın. Sosial şəbəkələrə, saytlara həm dövlət, həm ictimai nəzarət mexanizmləri formalaşdırılsın. Bilərəkdən saxta məlumat yayan mənbələr aşkar olunaraq sərt cəzalandırılsın. Xarici mənbələrdən belə məlumat yayan resurslara ölkə ərazisində giriş qadağan edilsin, qlobal sosial şəbəkələrdə belə məlumatlar yayılanda müəyyən üsullarla həmin profil və ya səhifə blok edilsin. Zəruri qeyd kimi əlavə edim ki, bu sərt qaydalar məmurların rüşvətxorluq və sair qanunsuz əməlləri ya da vətəndaş hüquqlarının pozulmaları ilə bağlı tənqid yazanlara tətbiq olunmamalıdır, sırf və milli dövlət təhlükəsizliyi məsələlərinə aid olmalıdır.

# Ukraynada qadınları Yunanıstana satmağa hazırlaşan erməni saxlanıldı!



Kiyevdə Ukrayna Təhlükəsizlik Xidməti ilə polisin birgə keçirdiyi xüsusi əməliyyatı nəticəsində Mariupol sakinləri olan iki ukraynalı qadını cinsi köləlik məqsədi ilə satmaq istəyən 38 yaşlı Ermənistan vətəndaşı saxlanılıb. S?A xəbər verir ki, bu barədə News.pn-ə Donetsk vilayəti polisinin kommunikasiya şöbəsindən bildirilib.

Belə ki, şübhəli bilinən şəxs digər şəxsiyyəti müəyyən olunmayanla birgə qadınların Afinaya göndərilmələri və orada fahişə kimi istifadə olunmaları üçün cinayət sxemi qurub. Saxlanılan erməni Mariupolun sosial vəziyyətləri ağır olan qadın sakinlərini axtararaq onları bu işə cəlb etməyə çalışıb. O, qadınları görəcəkləri "işin", yaşayış səviyyələrinin və qidalanmalarının, həmçinin qazanacaqları məbləğlərinin yüksək səviyyədə həll olunacağı vədlərini verib. Guya onlar bir saat intim xidmətlərinə görə 50 və daha yuxarı ABŞ dolları qazanacaqlarmış.

İki qadınla razılıq əldə olunduqdan sonra cinayətkar onların sənədlərinin qeydiyyatdan keçməsi və Yunanıstana getmələri üçün bütün xərclərini ödəyib. Bu vasitə ilə o, qadınları borc tələsinə salıb, çünki onlar bu pulları xaricdə işləyərək geri qaytarmalı idilər. Təşkilatçı qadınları şəxsən Kiyevdə qarşılayıb və beynəlxalq reyslər həyata keçirən avtobusa qədər müşayiət edib. Məhz həmin vaxt o saxlanılıb. Şübhəli şəxsi 5 ildən 10 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

**Rövşən RƏSULOV**

# Karapetyanın "xox" gəlməsi yalanmış...



***...Axır ki, "yerin yiyəsi" gəlib çıxdı. İndi gəl, dayan, görüm necə "dayanacaqsan" Ermənistan ordusunun qabağında. Artıq ermənilərin bütün media orqanları Arşakdan, onun "şücaətindən", "verdiyi sərt əmrlə" bağlı bəyanatından yazırlar. Belə ki, bir müddət bundan əvvəl ermənilərin yeni müdafiə naziri Arşak Karapetyan nazirliyin kollegiya iclasında cəsarət edib, sərhədi keçmək istəyən azərbaycanlı hərbçilərin "yerindəcə məhv edilməsi" barədə əmr verib.***

Belə görünür ki, Azərbaycan Ordusu əsgərlərinin artıq "kitabı bağlandı". Yəni onlar üçün Vaqarşaq Arutyunyan dövrü arxada qaldı, ..."istəyəndə "erməni sərhədini" keçirdilər, istəməyəndə, qayıdıb gedirdilər"...

İndi artıq Ermənistan sərhədində yeni dövr başlayır- Arşak Karapetyan dövrü...bu gün artıq erməni sərhədini "quş da səkə bilməz".

Təbii ki, bütün bunlara şahidlik edən ermənilər təəccüb və tərəddüd məngənəsində qalıblar. Məsələn, onlar Arşak Karapetyanın müdafiə naziri gələn kimi ermənilər üçün hər şeyin yaxşılığa doğru dəyişdiyinə təəccüblənirlər.

Tərəddüdlərinə səbəb isə, bir gecədə erməni ordusunun bölgədə döyüşə hazır vəziyyətə gələ bilməsi ilə bağlıdır.

Doğrudanmı, Serjik Sarkisyanın yarıtmazın biri kimi işdən qovduğu Arşak Karapetyan belə qabiliyyət sahibiymiş?

Görəsən bu, Nikol Paşinyan üslubunda oynanılan növbəti oyunlarından biri deyil ki?..

...Yəni doğrudanmı, sabiq müdafiə naziri Vaqarşak Arutyunyanın dövründə olduğu kimi, daha azərbaycanlılar "erməni ərazisində" özlərini rahat hiss etməyəcəklər?

...Yəni doğrudanmı, daha bundan sonra "sərhədi keçən" Azərbaycan Ordusunun əsgərlərini görən erməni əsgərləri gizlənmək üçün "siçan dəliyini satın almayacaqlar"?

...Qeyd edək ki, erməni saytları burada Azərbaycan Prezidentini müdrik bir siyasətçi kimi təqdim etməklə, üstəlik, ağıllı insanların müxtəlif ölkələrdə onun üçün çalışdığını da etiraf etmək məcburiyyətində qalırlar. Məlumdur ki, hazırda Nikol Paşinyan ermənilərin "biabırçı adlandırdıqları" güzəştlərə getməyə hələ ki, "tərəddüd edir". Təbii ki, bu onun sonunu gətirə biləcəyinə də şübhə yeri qoymur. Amma Nikol "bu güzəştlərə" getməyə məhkumdur. Ermənilərə görə, Azərbaycan Prezidenti də bunu çox yaxşı başa düşür. Yəni o, gözəl bilir ki, Nikol və onun ətrafına "lələklərini təmizləmək, mövqelərini gücləndirmək" üçün vaxt vermək lazımdır. Bu vaxt həm də erməni müxalifətinin hücumunu cilovlamağa hesablanır. Məhz bu mənada, Nikol özünə yararlı Arşak Karapetyan kimilərin xidmətindən istifadə etmək məcburiyyətindədir. Deyilənə görə, Karapetyan Nikolun ən yaxın adamlarındandır. Nikol onun xidmətindən əvvəllər də, ermənilərin ikinci prezidenti olmuş Robert Koçaryanın həbs edilməsində yararlanıb. "...Bəs, yaxın adam daha hansı gündə tanınmalıdır?"

Ona görə də, bu gün Karapetyanın boğazdan yuxarı danışıb Azərbaycan Ordusu əsgərlərinə yalançı "xox" gəlməsi, dediyimiz kimi, Paşinyan üslubunda oynalınan oyunlardan biri olaraq indi də müdafiə naziri tərəfindən oynalınır.

**Ağasəf Babayev**

# Erməni quldur dəstələri Qarabağda xaos yaşadırlar



Azərbaycan ərazilərində erməni hərbi kriminalının əlləri-ni-qollarını sallaya-sallaya gəzmələri, üstəlik, cinayətlərə yol vermələri bir daha üçtərəfi bəyanatın 4-cü bəndinin icradan kənar qalmasını sübuta yetirir

Fərarilik, "dedovşina" və s. kimi bənzər hallar sanki erməni hərbçilərinin boylarına biçilmiş dəyişilməz qanuna çevrilib. Belə ki, istər 44 günlük İkinci Qarabağ müharibəsindən qabaq, istərsə də sonra Ermənistanda, eləcə də Rusiya sülhməramlılarının nəzarətləri altındakı Azərbaycan ərazilərində xaoslu vəziyyət davam edir. Qətllər, dava-dalaşlar, intiharlar, şəxsiyyətin alçaldılması, hətta homoseksualizm halları necə deyərlər, ənənəviliyə çevrilib. Əbəs deyil ki, artıq erməni valideynlər öz övladlarını hərbi xidmətə yola salmamaq üçün əllərində olan bütün imkanlardan istifadə edirlər - ölkədən qaçırırlar, rüşvətlər yolu ilə hərbi xidmətdən yayındırırlar, müxtəlif xəstəlik kağızları vasitəsi ilə övladlarına ya "dəli", ya da "əlil" dərəcələri yapışdırırlar.

Xüsusilə, Qarabağdakı rus SM-rın nəzarətləri altındakı bölgələrdə hələ də qalmaqda davam edən erməni quldur dəstələri mütəmadi olaraq cinayətlər törətməkdədirlər.

Xocavənddə nə baş verib?

S?A-ya daxil olan məlumata görə, caliber rusdilli informasiya analitik kanalına etibarlı mənbələrdən xəbər sızıb. Həmin xəbərə görə, 2021-ci ilin avqust ayının 5-də Xocavənd rayonunda yerləşən qanunsuz hərbi hissədə erməni quldurları arasında mübahisə yaşanıb və nəticədə onlar bir-birlərinə atəş açıblar. Ağır yaralıların olduğu barədə də məlumat var.

Quldur dəstələrinin zaman-zaman mülki şəxslərlə də münaqişələri baş verir. Onlar qida və s. üçün kəndlərə gedərək, kəndlilərdən ərzaq, siqaret və s. kimi məhsullar tələb edirlər, onları əldə edə bilmədikdə isə toqquşmalar yaşanır və bunun da nəticəsində tərəflər arasında yaralananlar, müxtəlif dərəcəli bədən xəsarətləri qeydə alınır. Və ən maraqlısı da budur ki, erməni tərəfi yaralıları "Azərbaycan SQ-nin atəşkəsi pozması" adı altında qeydə alırlar.

Əks halda, Azərbaycanın həm erməni quldur dəstələri ilə bağlı ölçü götürməyə, həm də digər müvafiq addımları atmağa tam hüququ var və bu hüquq söz yox ki, əbədi olaraq qüvvədədir

Daha bir kriminal insidenti qeyd edək. Belə ki, iyulun 21-də qanunsuz erməni quldur dəstəsinin üzvlərindən biri olan Samvel Dadunts tabel silahı ilə başına güllə vuraraq intihar edib.

Bu arada, onu da xatırladaq ki, qanunsuz erməni quldur dəstələrinin Rusiya SM-rı ilə də münasibətləri hamar deyil. Vaxtaşırı olaraq onlar arasında münaqişələr baş verir. O cümlədən, erməni kəndliləri şikayət edirlər ki, Rusiya SM kontingentinin əsgərləri artıq bir neçə erməni qızlarını hamilə buraxıblar. Hətta yanvar ayında bənzər hadisə ilə bağlı sülhməramlıların komandanı Rüstəm Muradova şikayət məktubu da yazılmışdı.

Ancaq bütün bunlara rəğmən, Azərbaycan ərazilərində erməni hərbi kriminalının əlləri -qollarını sallaya-sallaya gəzmələri, üstəlik, cinayətlərə yol vermələri bir daha üçtərəfi bəyanatın 4-cü bəndinin icradan kənar qalmasını sübuta yetirir. Erməni quldurlarının RF SM-nin olduqları ərazilərdəki sözügedən özbaşınalıqlarına isə, məhz bu əsasda son qoyulmalıdır.

O cümlədən, Rusiya sülhməramlıları da Laçın dəhlizindəki nəzarət mexanizmlərini məsuliyyətlə icra etməli, ciddiyyətə almalı, Ermənistandan sıravi vətəndaş şəklində gələrək, Qarabağda əyinlərinə hərbi forma geyinən qanunsuz erməni dəstələrini oradan çıxarmalıdırlar. Əks halda, Azərbaycanın həm erməni quldur dəstələri ilə bağlı ölçü götürməyə, həm də digər müvafiq addımları atmağa tam hüququ var və bu hüquq söz yox ki, əbədi olaraq qüvvədədir.

**Rövşən RƏSULOV**

# "Jirinovski bütün zamanlarda Kremlin əlində siyasi bir alət olub"

***"Jirinovski bütün zamanlarda Kremlin əlində siyasi bir alət olub". Bu sözləri S?A-ya açıqlamasında politoloq Natiq Cəfərli deyib.***

Onun sözlərinə görə, Jirinovski hər zaman Kremlin sifarişi ilə parlamentə dırnaqarası seçilib: "Yəni seçilən partiyalar arasında hər zaman "Liberal Demokratlar Partiyası" parlamentə düşə bilib və bu, xüsusi xidmətlərinə görədir. Və zaman-zaman Jirinovskiyə imkan verilir ki, Rusiyanın imperiya siyasətini rahatlıqla dilə gətirə bilsin və Rusiya bunun nəticəsində hər zaman potsovet ölkələrinə mesajını çatdıra bilib. Belə bir siyasət Rusiyanın xarici siyasətinin əsas tərkib hissələrindən biri olub. Bu günün özündə də eynən davam edir və hələ onların siyasətində dəyişən bir şey yoxdur. Jirinovskinin bu açıqlamasını düşünürəm ki, özünün sadəcə boğazdan yuxarı səsləndirdiyi fikirləri kimi yox, birbaşa Kremlin sifarişi əsasında bəyan etdiyini demək istəyirəm. Ona görə də Jirinovskini ciddi bir fiqur kimi də qəbul etmək lazım deyil.

Xatırlayırsınızsa, Jirinovskinin Azərbaycana səfəri olmuşdu. Bu səfər



çərçivəsində Jirinovski kimi adamlarla müəyyən mənada münasibətlərin tənzimlənməsi düşünülürdü və bəzi tarixi reallıqları da bu səfər çərçivəsində Jirinovskiyə və onun kimi adamlara anlatmaq istəyirdilər. Ancaq bu səfərdən sonra belə Jirinovskinin çıxışlarında dəyişən heç nə olmadı. Ona görə ki, o, hec zaman reallıqları, düzgünlüyü heç zaman dilinə gətirməyib və məncə də gətirməyəcək. Onun parlamentdə təmsilçiliyi və hətta parlamentdə spiker müavinliyi vəzifəsinə gətirilməsi onun bilavasitə siyasi alət olmasını göstərir. Bilirsiniz, yaxşı bir deyim var. Pulu kim verirsə, toyda musiqini o sifariş verir. Jirinovski də təxminən bu kontekstdə fəaliyyət göstərən bir siyasətçidir. Ona görə də açığı mənə elə gəlir ki, Jirinovskinin bu cür açıqlamalarını və daha çox sərsəm açıqlama kimi deyil, daha çox Rusiyanın sifarişi kimi qəbul etmək və buna adekvat şəkildə münasibət bildirmək lazımdır. Mən düşünürəm ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Rusiya müvəqqəti işlər katibini çağırması yəni Rusiya səfirini əvəz edən şəxsi çağırması və ona nota təqdim etməsi doğru bir addım idi. Bu, Azərbaycan dövlətinin mövqeyini ortaya qoyması anlamına gəlir və eyniz zamanda, o anlama gəldi ki, Azərbaycan artıq o dövlətlərdən deyil ki, Rusiyanın hər musiqisinə qol qaldırıb oynasın.

**Ziya Hikmətoğlu**



# Sreçko Cukiç: "Serbiyadan Ermənistana silah satılmasına görə üzr istəyirik"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Müharibədən sonra bəzi xarici dövlətlərin -qeyri-regional oyunçuların -xarici işlər nazirlərinin Azərbaycan, Qırğızıstan və Qazaxıstana səfərləri teztez baş verdi. Serbiyanın xarici işlər naziri Nikola Selakoviç də bu yaxınlarda Azərbaycana rəsmi səfər etdi.***

Burada xatırlatmaq yerinə düşər ki, keçən il Serbiyanın Ermənistanı silahla təchiz etdiyi məlum olduqda diplomatik qalmaqal yarandı. Üstəlik, minaatanlar da daxil olmaqla böyük miqdarda silah. Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun Serbiyanın Ermənistana silah ixracından son dərəcə məyus olduğunu dilə gətirdiyi hələ də xatırlanır. O zaman Azərbaycanla Serbiya arasındakı dostluq münasibətləri təhlükə altında idi. Amma bu gün görürük ki, iki ölkə arasındakı münasibətlər artıq təhlükə altında deyil və Serbiyanın xarici işlər nazirinin Azərbaycana səfəri Belqradın Bakı ilə əməkdaşlığı genişləndirməyə hazır olduğunu göstərir, o cümlədən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakının mümkünlüyünü nəzərə alır. Hələ bu ilin mayında Azərbaycan Prezidenti İlham Əliyev Serbiya şirkətlərini Qarabağın bərpasında iştirak etməyə dəvət etmişdi.

Bu mövzuda Serbiyada hansı qərar verildi, bu ölkənin xarici işlər nazirinin Azərbaycana səfərinin məqsədləri nələrdir? Serbiyanın Belarusdakı keçmiş səfiri, iqtisad elmləri doktoru, tanınmış ekspert Sreçko Cukiç "Caliber" analitik informasiya mərkəzinə müsahibəsində bu məsələlərə aydınlıq gətirib. Müsahibəni təqdim edirik.

**- Bu gün gündəmdən çıxmış ola biləcək çox vacib bir məsələdən başlayaq- keçən ildən bəri bir çox azərbaycanlının beynini "Serbiya özünü 30 il ərzində Azərbaycan ərazilərini işğalda saxlayan təcavüzkarı dəstəkləyən bir ölkə kimi göstərdi" fikri məşğul edib. Heç kimə sirr deyil ki, 2013-cü ildə Azərbaycanla Serbiya arasında dövlət başçıları səviyyəsində Dostluq və Strateji Tərəfdaşlıq haqqında Bəyannamə, 2018-ci ildə isə Strateji Tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı imzalanmışdır. Bu sənədlərdə qeyd olunur ki, Azərbaycan və Serbiya bir-birinin suverenliyini və ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanıyır. Serbiya tərəfinin Ermənistan-Azərbaycan,**



**Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsasında beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in qətnamələrinə uyğun olaraq həll edilməsinin tərəfdarı olduğu qeyd edilib. Sizcə, Serbiya niyə bu sənədlərdən irəli gələn öhdəliklərini yerinə yetirməyib? Ermənistanın hərbi əməliyyatların qızğın vaxtında silahlandırılmasının arxasında nə dayandı?**

- Mən əvvəldən aydınlaşdırmaq istəyirəm ki, Serbiyanın mövqeyi ərazi məsələlərinin sülh yolu ilə həll edilməsidir. Münaqişəli ölkələr problemləri bu şəkildə həll etməyə çalışmalıdırlar. Təəssüf ki, bu, həmişə mümkün olmur və çox təəssüf edirik ki, belə bir səhv təəssürat yarandı ki, guya 44 günlük müharibə zamanı Serbiya Azərbaycana qarşı mövqe tutmuşdu. Dərhal demək istəyirəm ki, Serbiyada bəzi dairələrin həqiqətən də Ermənistana silah satdığı barədə məlumatlar doğrudur. Amma bunu Serbiya etməyib, ölkənin özü, Serbiya dövləti etməyib. Bunu Serbiya dövlətindən heç bir bildiriş almadan və heç bir icazə almadan xüsusi şəxslər etdi. Yeri gəlmişkən, prezident Aleksandr Vuçiç dövlət hakimiyyəti ilə əlaqəli olan şəxslərin bu hərəkətlərinə haqq qazandırmağa çalışdı. Hər şeyin belə getdiyinə görə çox təəssüf edirik. Gələcəkdə bir damla da insan qanı tökməmək istəyirik. Düşünürəm ki, məsələ artıq gündəmdən çıxarılıb. Yenə deyirəm, bununla dövlət deyil, özəl biznes məşğul olub. Şəxsən mən öz adımdan üzr istəyirəm, bağışlayın, azərbaycanlı dostlar.

**- Bu şəxslərin Serbiya ilə Azərbaycan arasındakı münasibətləri korlamağa çalışdıqlarını deyə bilərikmi?**

- Baş verənləri belə şərh etmək olar. Ancaq bu özəl ticarətçilər, ilk növbədə, qazancla maraqlanırlar. Azərbaycana, Ermənistana, Yəmənə, Liviyaya silah satırlar. Yəni kimə satacaqları yox, sadəcə, nə qədər pul qazanacaqları ilə maraqlanırlar. Lakin onlar qanunun ən yüksək həddində cavab verəcəklər, bu gün olmasa da, sabah.

**- Serbiyanın xarici işlər naziri Nikola Selakoviç bu yaxınlarda Azərbaycana rəsmi səfər etdi. Onun səfərinin əsas məqsədləri nə idi?**

- Mən həmişə Belqradla bütün postsovet ölkələri arasında əlaqələrin genişləndirilməsinin tərəfdarı olmuşam. Postsovet məkanı təkcə Rusiya deyil. Orada 15 respublika var. Bu dövlətlərin hər biri ilə tam hüquqlu əlaqələr inkişaf etdirməliyik. Və yeri gəlmişkən, bu gerçəkləşir. Belqrad ilə Bakı arasında bütün istiqamətlərdə-siyasi, iqtisadi, maliyyə, mədəni münasibətlərdə inkişaf edən münasibətlər buna bariz nümunədir. Bu səfər ölkələrimiz arasında əlaqələrin genişlənməsinə daha çox töhfə verir. Əlaqələrimizin bir çox səhifələri hələ açılmamışdır. Bu səfər əlaqələrimizi yeniləmək məqsədi daşıyırdı. Azərbaycan Prezidenti İlham Əliyevin Belqrad səfərinə də hazırlıq gedir. Bu, çox vacib bir səfərdir. Azərbaycan Prezidenti 10 ildir ki, qonağımız olmayıb. Düşünürəm ki, belə bir yüksək səviyyəli səfərin vaxtı gəldi.

**- Serb şirkətləri bu gün azad edilmiş ərazilərin bərpasına töhfə verməyə hazırdırmı? Bu məsələdə Serbiyanın hansı təcrübəsi faydalı ola bilər?**

- Serb şirkətlərinin təcrübəsi, əlbəttə ki, çox faydalı ola bilər. Serbiyada müharibə, NATO təcavüzü, bombardmanlar yaşadı. Bir çox infrastruktur obyektləri darmadağın oldu. Serb şirkətləri müharibə zamanı məhv olan hər şeyi bərpa etdilər. Təklifi qəbul edib Azərbaycanın azad edilmiş torpaqlarında bərpa işlərində iştirak edə biləcək şirkətlər var. İqtisadi palatamız bunun necə ediləcəyi ilə məşğul olacaq. Dəvətə görə Prezident İlham Əliyevə təşəkkür edirəm.

**- Serbiya və Azərbaycan azad ticarət sazişinin imzalanma ehtimalını təhlil edəcək. Bunu Serbiyanın xarici işlər naziri Nikola Selakoviç bu yaxınlarda keçirilən Azərbaycan-Serbiya biznes forumu zamanı deyib. Bu perspektivi necə qiymətləndirirsiniz? Sərbəst ticarət müqaviləsinin müsbət və mənfi tərəfləri nələrdir?**

- Çox yaxşı fikirdir. Şəxsən mən Azərbaycanla azad ticarət haqqında müqavilə bağlamağı çoxdan təklif etmişəm. Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Ermənistanla bir çox müqavilələrimiz var. Ümumiyyətlə, bunlar Avrasiya iqtisadi məkanını əhatə edən müqavilələrdir. Türkiyə ilə ticarət müqaviləsi var. Eyni forma sizin və bizim üçün də çox uyğundur. Məlumdur ki, ölkələrimiz arasında ticarət çox kiçikdir- 20 milyon dollar. Azərbaycan zəngin neft və qaz ölkəsidir. Bu da ölkələrimiz arasında bir əməkdaşlıq mövzusudur. Amma mütləq azad ticarət zonası ilə bağlı müqavilə bağlamalıyıq, inkişafı müxtəlif istiqamətlərə çəkmək lazımdır. Serbiyanın Azərbaycana və əksinə, Azərbaycanın Serbiyaya sata biləcəyi çox şey var. Ölkələrimiz arasında ayrı bir əməkdaşlıq sahəsi neft və qazdır. Bu mövzu əlaqələrimizin gündəmində olmalıdır. Dövlətlərarası iqtisadi əlaqələrimizi inkişaf etdirə biləcəyimiz bir çox sahələr var.

*Müsahibəyə video formatda buradan baxa bilərsiniz*
*https://www.youtube.com/watch?v=iLIVeVOQiYk*

***Tərcümə -Elçin Bayramlı***

# Məktəblər açılarsa yaranacaq problemlər

**Təhsil dövrü yaxınlaşdıqca, valideynlərin narahatlığı artır. Övladı bağçaya, hazırlığa, məktəbə, ali təhsil ocağına üz tutacaq insanlar çətin durum qarşısındadırlar. Görəsən, koronavirus qorxusu canımızdan çıxıbmı? Uşağı təhsil ocağına göndərməyə hazırıqmı?**

Ölkənin təhsil cameəsi Azərbaycanın ümumtəhsil məktəblərində təhsilin bərpasını müzakirə edir. Pandemiya ilə əlaqədar olaraq məktəblərin açılması real görünmürdü. Məktəblərdə şagirdlər və müəllimlər arasında sosial məsafənin saxlanılmasını təmin etməyin çətin olacağı əsas gətirilirək ənənəvi məktəblərin açılması ilə bağlı müxtəlif fərqli mülahizələr irəli sürülür. Şagirdlərin məktəblərdən uzaqlaşması tədris proqramını mənimsəyə bilməməsi ilə yanaşı, şagirdlərin məktəb mədəniyyətinə qüsurlu təsirlər göstərə biləcəyi ayrıca bir məsələ olaraq ortaya atılıb. Eləcə də, bir sıra ekspertlər karantin şəraitinin aradan götürüləcəyi təqdirdə açılması tələb olunan ilkin müəssisənin məhz məktəblərin olması qənaətindədir.

Covid-19 virusunun dünyada tüğyan etdiyi, canlar aldığı bir dövrdə insan sağlığının hər bir məsələnin önündə dayandığı barədə fikirlər təhsil müəssisələrinin bağlı saxlanılmasını şərtləndirirdi. Pandemiyanın hələ bitmədiyini nəzərə alaraq təhsil müəssisələrinin növbəli şəkildə açılması ilə bağlı qərarın nə dərəcədə mövcud şəraitə adekvat olduğu da mübahisəli qarşılanır. Əslində məsələyə yanaşmada şagirdlərin də fikirləri fərqlidir. Onsuz da pandemiya şəraiti bütün sahələrdə onlayn, virtual münasibətləri formalaşdırıb. Onsuz da təhsil proqramlarında kifayət qədər geriləmələr oldu. Məktəblərin açılması hansı üstünlüyə, yaxud narahatlığa səbəb ola bilər. Ümumiyyətlə məktəblər açılmalıdırmı, yoxsa yox?

Sirr deyil ki, şagirdlərin heç də hamısı evlərinə yaxın məktəblərdə təhsil almır və dərsə getmək üçün ictimai nəqliyyatdan istifadə edir. Bu isə 2-3 həftədən sonra avtobuslarda sıxlığın nəzərə çarpacaq dərəcədə artacağından xəbər verir. Sərnişin yükünün böyük hissəsini metro çəkə bilər. Yeraltı nəqliyyat isə koronavirus pandemiyasına qarşı görülən mübarizə tədbirləri çərçivəsində aylardır bağlı idi. Hazırda metro işləsə də tələbə və şagirdlərin yaradacağı sıxlıq əlavə risklərə səbəb ola bilər.

Distant təhsil sisteminə rahatlıqla alışan uşaqlarla yanaşı, çətinlik çəkən, əsəbləşən, psixoloji gərginlik yaşayan uşaqlar da olub. Buna görə də həmin şagirdlərin də vəziyyətini nəzərə almaq lazımdır. Digər tərəfdən, məlumdur ki, məktəbləri açan, yeni tədris ilində ənənəvi qaydada prosesə başlayan ölkələrdə pandemiya şəraiti ilə əlaqədar xüsusi təlimatlar var və bu sənədlərdə şagird sayı da əsas götürülür. Ənənəvi məktəb sisteminə adaptasiya prosesi yalnız tədrisdə deyil, uşaqların bir-biri ilə münasibətlərində də özünü göstərəcək.



Belə ki, mütəxəssislərin fikrincə burada əsas yük müəllimlər və valideynlərin üzərinə düşür. Valideynlərlə yanaşı müəllimlər də çox diqqətli olmalıdırlar. Çünki dərs prosesində valideynlər uşaqlardan bir neçə saatlıq uzaqlaşacaqlar və əsas çətinlik müəllimlərin üzərinə düşəcək. Vəziyyətə uyğunlaşmaq təxminən 2 aya yaxın çəkəcək. Bu zaman valideynlər, müəllimlər uşaqlara qarşı həddindən artıq həssas olmalı, onların üzərinə getməməli, mümkün qədər sərbəstlik verməlidirlər. Onlar uşaqların əvvəlki güvənini özünə qaytarmağa çalışmalıdırlar. Əks halda cəmiyyətə güvənsiz, özünə inamsız, özünükiçildən fərd yetişdirəcəklər.

Daha çox yuxarı sinif şagirdlərinə nəzər yetirmək lazımdır. Ən çətin, problemli mərhələ onları gözləyir. Ona görə ki, illərdir pandemiya ilə üz-üzə qalmışıq, yaşlılarda bu, psixoloji problemlərlə müşahidə olunsa da, uşaqlarda daha mürəkkəb psixoloji böhran prosesi hələ başa çatmayıb. Pandemiya dövrü uşaqlarda fizioloji, anatomik, psixi və sosial keyfiyyətlər baxımından həyatın bir mərhələsindən digərinə keçid dövrünü bütünlüklə əhatə edib. Yeniyetmə orqanizmi üçün bu dövr çox əhəmiyyətlidir.

***Zərdüşt Quluzadə***

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

7 avqust

# Rafael Olimpiya ikincisi oldu

***Karateçimiz Rafael Ağayev (75 kq.) dünən Tokio-2020-də mübarizəyə başlayıb. Qol.az xəbər verir ki, 5 qat dünya, 11 qat Avropa çempionu olan 36 yaşlı idmançımız qrupda keçirdiyi 4 döyüşdən 3-də qalib gələrək ikinci yerin sahibi kimi yarımfinala yüksəlib. Burada o, Karol Harspataki (Macarıstan) ilə qarşılaşıb. Harspataki Avropa Oyunlarının (2019) bürünc mükafatçısıdır. O, Avropa çempionatında gümüş (2018) və bürünc (2017) medal da qazanıb. R.Ağayev 7:0 hesabı ilə qalib gələrək finala vəsiqə qazanıb və ən azı gümüş medalı təmin edib.***



Onun rəqibi Ukrayna idmançısı Stanislav Horunaya qalib gələn Luici Busa (İtaliya) olub. O, ikiqat dünya, beşqat Avropa çempionudur. Ağayev 2015-ci ildə Bakıdakı Avropa Oyunlarının finalında Busaya qalib gəlib. Tokio-2020-dəki qrup matçından isə idmançımız Busaya uduzub (1:3).

Budəfəki finalda Rəfael 0:1 hesabı ilə uduzaraq Yay Olimpiya Oyunlarında gümüş müdal qazanıb.

# Giləmeyvələr koronavirusdan sonra bərpa prosesini sürətləndirir



***Koronavirus infeksiyasını keçirən insanlar üçün yüksək miqdarda C vitamini və digər antioksidantlar olan giləmeyvələr yemək faydalıdır. Bunu AZƏRTAC "MedikForum"a istinadla xəbər verir.***

Giləmeyvələrin COVID-19-dan sonra tam sağalma və bərpanı sürətləndirməsinə kömək etdiyi barədə həkim terapevt, qidalanma mütəxəssisi Rimma Moysenko verdiyi müsahibəsində bildirib. Onun sözlərinə görə, giləmeyvədə olan antioksidantlar - məsələn, poliprenollar, polifenollar - xəstəlikdən sonra bərpaolunan orqanizmə güc qatır. Onları əldə etmək üçün tünd rəngli giləmeyvələr - "qarabəhərli quşarmudu, qara və qırmızı qarağat, moruq" yemək faydalıdır.

Giləmeyvələrlə yanaşı, Rimma Moysenko xəstəlikdən sonra sağalanlara çox miqdarda tərəvəzlər, göy-göyərti, meyvəköklü və kökyumrulu bitkilərin gövdə və yarpaqlarını qəbul etməyi məsləhət görür. Onların sayəsində orqanizm lif, B9 vitamini, fol turşusu, əlavə antioksidantlar alır. Bütün bunlar, həmçinin koronavirus xəstəliyindən sonra insanın yaxşı formaya qayıtmağını sürətləndirir.

# Messi "Barselona"dan niyə getdi?- əsl səbəb açıqlandı!



Lionel Messinin "Barsa"nı tərk etməsi dünya mətbuatında geniş müzakirə olunur. S?A xarici mətbuata istinadən xəbər verir ki, Leonun gedişinin səbəbi ilə bağlı müxtəlif versiyalar irəli sürülür. "Mundo Deportivo" nəşri də öz versiyasını təqdim edir.

Bildirilir ki, Messi klub rəhbərliyinin transfer siyasətindən narazı qaldığı üçün komandanı tərk edib. İddia olunur ki, Leo "Atalanata"nın müdafiəçisi, həmyerlisi Kristian Romeronun alınmasında təkid edib. "Barsa" futbolçuya görə 40 milyon avro təklif etsə də, "Atalanta" bundan imtina edib. Keçid baş tutmadıqdan sonra Leo ilə klub rəhbərliyi arasında mübahisə yaşanıb. Bundan sonra Messi getmək barədə qərar verib.

# Namiq Ələsgərov məşqlərə başladı



***"Neftçi"nin futbolçusu Namiq Ələsgərov fərdi məşqlərə başlayıb. Qol.az xəbər verir ki, o, İnstaqram hesabında məşq zalından fotosunu paylaşıb. 26 yaşlı hücumçu "let start" yazaraq məşqlərə başladığını bildirib.***

Xatırladaq ki, Ələsgərov Çempionlar Liqasının 2-ci mərhələsinin Yunanıstanın "Olimpiakos" klubu ilə səfər oyununda (0:1) üzündən ciddi zədə almış və əməliyyat olunmuşdu.

# Ov edən şəxslər cəzalandırılıb

***Qanunsuz balıq ovunun qarşısının alınması məqsədilə Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən növbəti nəzarət tədbirləri zamanı Mingəçevir, Ağstafa su anbarlarında, Baş Mil-Muğan kollektorunda qanunsuz balıq ovlayan şəxslər saxlanılıb.***



Araşdırma zamanı brakonyerlərin Yevlax rayon sakini Oqtay Məmmədov, Sənan İsmayılov, Salyan rayon sakinləri Nadir Əliyev, Rəşad Yolçuyev olduğu məlum olub. Faktla bağlı qanun pozucuları barəsində qanunamüvafiq tədbirlər görülüb.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**